

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 8 (24.443)

22 fevral 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Zəfər yalnız döyüş meydanlarında qazanılmır, o, əmək meydanlarında da yazılır...



## Xankəndi danışır, xalq danışır, torpaq danışır...

### Prezident İlham ƏLİYEV:

*“Bu fabrik birliyimizin daha bir rəmzidir... Bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər.”*

Cənab Prezidentin işğaldan azad olunan ərazilərə səfərlərini böyük qürurla izləyirik. Bir zamanlar həsrətlə baxdığımız torpaqlarda bu gün səmimi gülüşlər, quruculuq və həyat var. Bəzən bir foto bütün bir tarixi danışır. O foto ki azadlığı, zəfəri və birlik ruhunu ifadə edir. Bu an təkcə bir görüntü deyil – bir epoxanın dönüş nöqtəsidir. Xankəndi danışır, xalq danışır, torpaq danışır… Və bu səs tarixdə əbədi iz buraxır!

Cənab Prezidentin Xankəndidə zəhmətkeş insanlarla olan bu isti, doğma görüşü təkcə dövlət başçısının qayğısını deyil, həm də xalq-lider birliyinin ən gözəl təcəssümünü göstərir. Biz jurnalistlər təkcə xəbərləri yazmırıq, biz tarixin özünü yazırıq! Bir zamanlar işğal altında olan Xankəndinin bu gün azad və çiçəklənən bir şəhərə çevrildiyini görmək, bu inkişafı qələmə almaq hər birimiz üçün qürur mənbəyidir. Bu, Azərbaycanın öz torpaqlarına sahib çıxmasının, qurub-yaratmasının və gələcəyini öz əlləri ilə formalaşdırmasının canlı sübutudur!

**Xankəndidə təkcə sözlər yox, hisslər danışır…**

Xankəndi… Bir zamanlar nisgil dolu bu torpaq bu gün sevincin, quruculuğun və gələcəyə inamın ünvanına çevrilib. Prezident İlham Əliyevin Xankəndiyə səfəri, burada çalışan insanlarla səmimi görüşü təkcə adi bir səfər deyil, bu, bir millətin birliyinin, zəfərinin və quruculuq ruhunun təcəssümüdür.

O gün Xankəndidə təkcə sözlər yox, hisslər danışırdı… Prezidentin səmimi gülümsəməsi, zəhmətkeş insanların sevinc dolu baxışları bir daha sübut edirdi ki, bu torpaq artıq yeni həyatına başlayıb. Dövlət başçısının Xankəndidə tikiş fabrikində çalışan insanlarla görüşü yalnız bir işgüzar səfər deyil, bu, xalqla liderin birliyinin, inamının və doğmalığının ifadəsidir.

**Zəfər yalnız döyüş meydanlarında qazanılmır, o, əmək meydanlarında da yazılır!**

Prezident İlham Əliyevin Xankəndiyə səfəri, burada çalışan insanlarla keçirdiyi səmimi görüş bir daha göstərdi ki, Azərbaycan təkcə torpaqlarını azad etməklə kifayətlənmir – bu torpaqlara yeni həyat verir, insanları ilə birlikdə gələcək qurur!

Bu təsirli görüş Azərbaycan dövlətinin öz vətəndaşlarına, xüsusilə zəhmətkeş insanlara verdiyi dəyərin bariz nümunəsidir. Xankəndidə fəaliyyət göstərən tikiş fabrikində çalışan insanların üzlərindəki sevinc, onların dövlət başçısı ilə qurduğu səmimi dialoq həm ölkədəki iqtisadi inkişafın, həm də birlik və həmrəyliyin təcəssümüdür.

Bu görüş yalnız bir fabrik ziyarəti deyil, qalib xalqın, qurucu dövlətin öz torpaqlarında rifah və inkişaf üçün atdığı mühüm addımlardan biridir. Bu gün Xankəndi təkcə Azərbaycanın ayrılmaz parçası deyil, həm də uğur, əməksevərlik və yenidənqurmanın rəmzinə çevrilir!

**Bu foto qələbənin, birliyin və yenidən doğuluşun hekayəsini anladır!**

Bu foto təkcə bir anı əks etdirmir, o, bir tarix danışır. Üzlərdəki sevinc, gözlərdəki minnətdarlıq və səmimi gülüşlər – bunlar zəfərin, quruculuğun və xalq-lider birliyinin ifadəsidir. Xankəndidə tikiş fabrikində çalışan insanların əlləri təkcə parçaları deyil, öz talelərini də toxuyur.

Bu foto, sadəcə, bir iş görüşünü deyil, güvən, qayğı və gələcəyə inamın şəklə köçmüş halını əks etdirir. Azərbaycanın hər qarışı kimi, Xankəndi də dirçəlir, inkişaf edir və öz zəhmətkeş insanları ilə daha da güclənir!

**Üzlərdəki sevinc, gözlərdəki minnətdarlıq**

Xankəndi dünən düşmənin işğalında olan torpaq, bu gün isə Azərbaycan Bayrağı altında əmək və quruculuqla nəfəs alır. Burada təkcə tikiş parçaları tikilmir – yeni tarix, yeni həyat toxunur. Üzlərdəki sevinc, gözlərdəki minnətdarlıq, ürəklərdəki fərəh – hər biri bu torpağın azad nəfəs aldığının sübutudur.

Prezidentlə səmimi dialoq, güvən dolu baxışlar, inamla sıxılan əllər – bu, xalqın öz lideri ilə birlikdə yazdığı gələcək dastanıdır.

**Xankəndi susmur artıq… Danışır, qürurla, azadlığın səsi ilə danışır!**

Bu foto təkcə bir görüşün deyil, bir millətin gücünün, iradəsinin və zəfərinin əksidir. Xankəndi uzun illər nisgilli idi, amma bu gün burada sevinc, işıqlı gələcək və quruculuq var.

Bu fabrikdə təkcə geyimlər tikilmir – bu torpağın yeni tarixi yazılır, bu xalqın əzmi ipə-sapa düyünlənir. Əllərini uzadan hər işçi təkcə Prezidentə deyil, öz dövlətinə, öz gələcəyinə toxunur. Hər gülüş, hər baxış bu torpaqda azadlığın necə şirin olduğunu pıçıldayır.

Bu an təkcə bir foto deyil – bir epoxanın dönüş nöqtəsidir. Xankəndi danışır, xalq danışır, torpaq danışır… Və bu səs tarixdə əbədi iz buraxır!

Xankəndi dirçəlir, Azərbaycan böyüyür, tarix yazılır!

**Sara ƏZİMOVA**
*baş redaktor*


Xalqın gələcəyinə xidmət 2
Ağ günlərinə qovuşan Ağdam, Xankəndidə Zəfər parkı, yaraları sarınan Xocalı 3
Bal ətirli söhbətlər 4
Son zamanlarda Naxçıvanda qida təhlükəsizliyi ilə bağlı mühüm tədbirlər görülür 6-7
Mətbuatın 150 illiyi, “Konstitusiya və Suverenlik İli” ilə bağlı keçiriləcək tədbirlər diqqət mərkəzində olacaq 8
Şəhərimizin gecə sakinləri 12

# Xalqın gələcəyinə xidmət

Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətənə xidmət fəlsəfəsinin təməlində xalqına sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident cənab İlham Əliyevin müstəqil siyasətinə yüksək sədaqət hissləri dayanır. Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır.

2004-cü ildən Azərbaycan xalqının zəngin mənəvi irsini, Azərbaycançılıq fəlsəfəsini yaşatmaq, dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq kimi vəzifələri yerinə yetirmək məqsədilə yaradılan və dövlətimizin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin adını daşıdığı Heydər Əliyev Fondu ötən müddətdə həyatımızın ayrı-ayrı sahələrinin fəaliyyətini müasirləşdirmək üçün Mehriban xanımın rəhbərliyi ilə müxtəlif layihələr reallaşdırıb. Bu gün hər bir azərbaycanlının daha uğurlu sabahlara inamını, böyük sevgi və ehtiramını qazanan Heydər Əliyev Fondu Ulu Öndərin adını şərəflə daşımaqla dahi rəhbərin xatirəsinə layiqli fəaliyyət göstərməyi özünün prioritet vəzifəsinə çevirib. Fondun rəhbəri Mehriban xanım Əliyevanın dediyi kimi: *"Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas müəllimdir".*

Fondun gördüyü işlərin nəticəsi göz önündədir. Bu, yüzlərlə yeni inşa olunan məktəb, uşaq bağçaları, tibb müəssisələri, uşaqlar üçün xüsusi tibb və reabilitasiya mərkəzləri, bərpa olunan tarixi və dini abidələr yeni qurulan mədəniyyət ocaqlarıdır. Bu, Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq istiqamətində həyata keçirilən tədbirləri özündə əks etdirməklə işıq üzü görən yüzlərlə kitablar, foto və videoalbomlar, zəngin mədəni və tarixi irsimizin təbliğinə yönələn beynəlxalq simpoziumlar, festivallar, elmi konfranslardır. Fondun daha bir fəaliyyət istiqaməti isə səmərəli xeyriyyəçilik tədbirləri həyata keçirməsidir.

Prezident cənab İlham Əliyev fondun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: ***"Bu fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "Xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".***



İnsan və onun layiq olduğu səviyyədə yaşaması prinsipi fondun fəaliyyətinin prioritetdir. Bunun ifadəsidir ki, Mehriban xanım ötən illər ərzində elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji və məşğulluq sahələrində çalışan neçə-neçə istedadlı gəncin müxtəlif layihələrə cəlb edilməsi ilə onların xoşbəxt həyat yollarını müəyyənləşdirib. Valideyn qayğısından və himayəsindən məhrum olmuş nə qədər körpənin taleyinə həssaslıqla yanaşmaqla, xəstəlikdən əziyyət çəkən nə qədər uşağın xilası naminə mümkün olan hər şeyi etməklə hamının sevgisini qazanan Mehriban xanım deyir: *"Bu, yüz mindən çox şagirdin təhsil şəraitinin yaxşılaşmasına xidmət edən yüzlərlə yeni məktəb binasının istifadəyə verilməsi, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğı göstərilməsi, müasir avadanlıqla təchiz edilmiş yeni tibb mərkəzlərinin inşası, gənc istedadların dəstəklənməsi, tarixi abidələrin bərpası, qədim mədəniyyət və incəsənətimizin təbliği və nəhayət, Azərbaycanın əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanıldığı dünyəvi bir ölkə kimi dünyaya tanıdılmasıdır".*

***"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"***, – deyən Ulu Öndərin adını daşıyan fondun çoxsaylı məqsədlərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması, gələcək nəslə ötürülməsi, gənclərə bu dəyərlərin milli pasportumuz olmasının aşılanması, onlara ehtiramla yanaşılması və Azərbaycan mədəniyyətinin dünyada geniş təbliği ilə bağlıdır. Bu illər ərzində fond tərəfindən milli musiqimizin incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı məqsədyönlü addımlar atılıb, böyük uğurlara nail olunub, "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə nəşr edilib. İçərişəhər, Qobustan Tarix-Mədəniyyət Qoruğunun, xalça, saz, tar və muğam sənətlərinin, Novruz bayramının, "Çövkən" Qarabağ atüstü oyununun, Azərbaycan kəlağayısının UNESCO-nun mədəni irs siyahısına daxil edilməsi fondun səmərəli fəaliyyəti nəticəsində mümkün olmaqla hər birimizdə sonsuz qürur hissi yaradıb. Həmçinin Naxçıvanın incisi sayılan "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bununla da Şərur yallılarının beynəlxalq müstəvidə tanıdılması və təbliğinə şərait yaranıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev Fondunun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır".***

Bir çox mükafatlarla təltif olunması – Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeninə, həmçinin bir sıra dövlətlərin və təşkilatların nüfuzlu təltiflərinə layiq görülməsi Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə verilən yüksək qiymətdir.

Bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni abidələrin bərpası da fond rəhbərinin qarşıya qoyduğu vəzifələrdən biridir. Birinci xanımın *"Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlərboyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq"* sözləri xeyriyyəçiliyin fondun kredosuna çevrildiyini bir daha təsdiqləyir.

İşğaldan azad olunan ərazilərimizdə, tarixi-dini, mədəni abidələrimizin təmir və bərpası uğurla həyata keçirilir. Heydər Əliyev Fondunun Şuşada reallaşdırdığı layihələr isə hər kəsin sevincinə səbəb olub. Fond Qarabağ və Şərqi Zəngəzurda tarixi və dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihələrin icrasına başlayıb.

Dünyanın müxtəlif ölkələrində Azərbaycan Mədəniyyəti günlərinin, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının, eləcə də xarici ölkələrlə diplomatik münasibətlərin qurulması münasibətilə silsilə tədbirlərin keçirilməsi ölkəmizin mövqeyinin daha da möhkəmləndirilməsinə və beynəlxalq arenada Azərbaycanın imicinin yüksəldilməsinə xidmət edir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər bundan sonra da müstəqilliyimizin möhkəmləndirilməsinə, milli həmrəyliyin və tarixi Zəfərimizin əsaslarının gücləndirilməsinə, uğurların və yeni qələbələrin qazanılmasına müstəsna töhfə olacaqdır.

**Məhəbbət MİRZƏYEVA**



# Ağ günlərinə qovuşan Ağdam, Xankəndidə Zəfər parkı, yaraları sarınan Xocalı



***Bu il şanlı Zəfərimizin 5-ci ili tamam olur. Azərbaycan yalnız döyüş meydanında deyil, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla siyasi müstəvidə də böyük qələbəyə nail oldu. Bəyanata əsasən bir güllə atılmadan tarixi sahiblərinə qaytarılan Ağdam, Kəlbəcər, Laçın rayonları düşmən tapdağından təmizləndi. Beləliklə, Azərbaycan tarixində yeni bir dövr başladı.***

***Məlum 30 ildə tarixi dini-mədəni abidələrimiz, sosial obyektlərimiz, ictimai binalar, yaşayış evləri düşmənin qəsbkar siyasətinin qurbanı olub. 2020-ci ildə çəkilən videolardan da görünürdü ki, düşmən yaşayış məqsədilə deyil, bu torpaqları dağıtmaq, viran qoymaq niyyəti ilə qəsb etmişdi. Özlərinin də yaxşı bildiyi bir həqiqət vardı: gec-tez torpağın əsl sahibləri qayıdacaq. Bəli, qədim yurd yerlərimizin gerçək sahibləri qayıdır, düşmənin murdar nəfəsindən cadar bağlamış torpağın qəlbi isinir, güllələr yağan yerdə indi güllər açır, tarixi-mədəni irsimiz bərpa olunur, yeni, gözəl binalar ucaldılır.***

***Ağ günlərin astanasında***

Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası Ağdamda da uğurla davam etdirilir. Ağdam Azərbaycanın böyük və strateji əhəmiyyətə malik rayonlarındandır və zəngin tarixi-mədəni irsə sahibdir. Ağdam azad edildikdən sonra 2020-ci il noyabrın 23-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bura gələrək bərpa işlərinin başlanğıcını elan etdilər. Ölkə başçısının 2021-ci ildə növbəti səfəri zamanı Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması Ağdamın ağ günlərinin astanasında olmasının bariz göstəricisi idi. Ölkəmizdə ilk dəfə məhz Ağdam şəhərində dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin iştirakı ilə keçirilən Azərbaycan Milli Şəhərsalma Forumu yenidən qurulan şəhərin beynəlxalq əlaqələrinin genişləndirilməsi baxımından da uğurlu platforma idi.

***“Qafqazın Xirosiması”ndan dünyanın ən gözəl şəhərinə***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın fevralın 18-də Ağdam şəhərinə növbəti səfərləri həyata keçirilən genişmiqyaslı tikinti işləri ilə tanışlıq, açılış mərasimində iştirakları ilə əlamətdar oldu. Ağdamlı məktəblilər müasirtipli məktəb binasında təhsil alacaqlar. Təməli 2021-ci ilin mayında qoyulan 3 mərtəbədən ibarət 1 nömrəli məktəb 960 şagird yerlikdir. Müasir innovasiyalara əsaslanan təhsil ocağının yaradılması gələcəyə xidmət, bilikli, dünyagörüşlü nəslin yetişməsinə ərməğandır.

Fidanlar da unudulmayıb. Onlar üçün körpələr evi-uşaq bağçasının inşasına 2023-cü ildən başlanılıb. Aparılan tikinti işləri ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verilərək bildirilib ki, 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçası zirzəmi və iki mərtəbədən ibarətdir.

**Tikdim ki, izim qala…**

Əzəldən Qarabağın sakinləri məscidlər, abidələr, qalalar inşa ediblər. Yaradılışdan bu torpaqlara Azərbaycançılıq möhürü vurulub. Hər daşı, hər qayası milli nəqşlərlə bəzədilib. Nə qədər düşmənin işğalına məruz qalsa da, tarixin bu torpaqlara vurduğu möhürbəndi silmək, yox etmək mümkün olmayıb. Torpaq da savaşıb sanki yadellilərlə. Qoynunda gizləyib, sinə gərib, özünü tamamilə yox olmaqdan xilas edə bilib. XVIII əsrə aid Əsgəran qalası Qarabağın hakimi Pənahəli xanın göstərişi ilə inşa olunub. Azərbaycan memarlığının nadir nümunələrindən sayılan bu tarixi-memarlıq abidəsi artıq Ağdamın müasir tarixi dövrünə, çalarlarına uyğun fəaliyyət göstərəcək. Qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulur. Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olan ölkə başçısına bildirilib ki, dizayn layihəsi “Mədəni və təbii irs”, “İnfrastruktur və xidmətlər”, “Əyləncə və istirahət”, “Marketinq və təşviqat” olmaqla, 4 istiqamətə əhatə edən konsept üzrə hazırlanıb. Qala ərazisində müxtəlif rekreasiya xidmətlərinin də təklif olunduğu yaşayış kompleksinin inşası, daxili yol şəbəkəsinin (piyada və nəqliyyat) hazırlanması planlaşdırılır.

***Havalansın Xanın səsi***

Ağdam Muğam Mərkəzi binasının inşası yekunlaşmaq üzrədir. Dövlətimizin başçısına və birinci xanıma binada görülən işlərlə bağlı bildirilib ki, ümumi sahəsi 1,4 hektar olan mərkəzin birinci mərtəbəsində kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri təşkil etmək üçün hərtərəfli şərait var. Ərazidə 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin nəticəsi olaraq Azərbaycan muğamı UNESCO-nun “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri” siyahısına salınıb. Qarabağ muğamın beşiyidir. Muğam mərkəzinin tikintisi mədəni irsimizə, irsimizi yaradanlara və bu gün qoruyanlara töhfədir. İllərlə “Qarabağ şikəstəsi”nə həsrət qalan Qarabağda artıq Xanın səsi havalanır. Yeni muğam ifaçılarının yetişməsi üçün sənət məbədgahları yaradılır. Uğurlu olsun!

***İşıqlı sabaha doğru***

Azərbaycanın işğaldan azad edilən ərazilərində həyata keçirilən mühüm tədbirlərdən biri də enerji təhlükəsizliyinin təmin olunmasıdır. “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edən dövlətimizin başçısına mərkəzdə görülən işlərlə bağlı məlumat verilib.

Bildirilib ki, Ağdam şəhərinin Baş Planına uyğun olaraq şəhər ərazisində dairəvi elektrik təchizatı sxeminin yaradılması nəzərdə tutulub. Eyni zamanda şəhərdə Baş Plana uyğun yaradılacaq müxtəlif təyinatlı infrastrukturun keyfiyyəti və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi üçün binanın tikintisi həyata keçirilib.

Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlər üçün bütün zəruri şərait yaradılıb. Burada yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpa olunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışları təşkil ediləcək.

***Ağdamın gözü yolda…***

Həmin gün Prezident cənab İlham Əliyev “Ağdam Residence” yaşayış kompleksində yaradılan şəraitlə də tanış olub. 1,55 hektar olan ərazidə 6 mərtəbəli 6 yaşayış binası ucaldılıb. Kompleksdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb. Sakinlərin rahat yaşayışı üçün kompleksin ərazisində park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində də tikinti işləri öz axarında davam edir. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb.

Bütün bunlar Ağdamda hazırda görülən işlərin tərkib hissəsidir. Bir də Ağdamın sabahını düşünün! Qısa zamanda gözəl, abad, işıqlı bir şəhərə çevriləcək Ağdama qonaq gəlmək istəyənlər də az olmayacaq. Tək xaricilər deyil, elə biz özümüz də Ağdamın ağ günlərinə şahidlik etmək, yurduna dönən ağdamlıların sevincinə şərik olmaq üçün qonaq gedəcəyik. Bizim rahatlığımız üçün də şərait yaradılır. Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunan “Hilton Garden İnn” hotelində işlərin 60 faizi yerinə yetirilib.

“Hilton Garden İnn” hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub ki, bu da məşğulluğun təmin olunmasına zəmin yaradacaq. Saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan, doğmalarının sığal çəkdiyi bu şəhəri görmək, əsarətdən qurtulub qısa zamanda gözəlliyinə qovuşacaq Ağdamda xatirə fotosu çəkdirmək istəyənlər də az olmayacaq. Yaradılan şərait həm də turizmin inkişafına öz töhfəsini verəcəkdir. Ağdam öz sakinlərini qarşılamağa hazırlaşır, həm də təmtəraqlı. Kim bilir, bəlkə, elə gələn il yay tətilimizi Ağdamda keçirdik?!

***Zəfər parkının növbəti ünvanı – Xankəndi***

Doğma sakinlərinin nəfəsi ilə isinən Xankəndi də turizm imkanlarına sahibdir. Xankəndidə qonaqları qarşılamaq üçün şərait yaradılır, əhalinin məşğulluğunun təmin olunması istiqamətində mühüm işlər görülür. Fevralın 19-da Prezident cənab İlham Əliyev əsaslı təmir və bərpadan sonra müasir iaşə məkanlarının da yaradıldığı “Bulud” hotelin açılışında iştirak edib, Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub. Fəaliyyətinin genişləndiriləcəyi nəzərdə tutulan fabrikdə, ümumilikdə, 800 iş yeri yaradılacaq ki, bu da, öz növbəsində, işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna mühüm təsir göstərəcəkdir.

Yenilənən, gözəlləşən Xankəndi şəhərində Zəfər parkının təməli qoyulub. Döyüş meydanında qazanılan Zəfər ab-havası şəhərlərimizdə salınan Zəfər parklarının timsalında yaşanır. Keçilən şərəfli döyüş yolu, canını Vətən torpaqları üçün qurban vermiş oğullar ehtiramla xatırlanır və bu parklar bizə qürur hissi yaşadır. Zəfər parkının Xankəndi şəhərində də yaradılması tarixi qələbəmizin, ərazi bütövlüyü və suverenliyimizin bərpasının rəmzi kimi əlamətdardır.

***Yaraları sarınan Xocalı və ya Ballıca sakinlərinin sevinci***

***“Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi”.*** Bu fikirləri Prezident cənab İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində bir qrup sakinlə görüşü zamanı deyib. Fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olan ölkə başçısı bildirib ki, Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Ballıca kəndində 137 ev artıq bərpa edilib və 60-a yaxın evin bərpası nəzərdə tutulub. Hazırda kənddə 460 keçmiş köçkün yerləşib. ***“Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir”***, – deyən Prezident cənab İlham Əliyevin sakinlərlə keçən səmimi görüşü onlarda yüksək əhval yaradıb. “Dəmir yumruq” buradadır”, – deyə əzmlə çıxış edən sakinlər yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, 1992-ci ildə ermənilərin ən böyük terror dəstələri Ballıca kəndində məskunlaşmış və buradan öz çirkin əməllərini həyata keçirməyə çalışmışlar. İndi Ballıcada həyat qaynayır, sakinlər rahat həyat şəraiti ilə təmin olunurlar. Artıq qocaların fəryadı, uşaqların çığırtısı deyil, işığı yanan evlərdə gülüşlər eşidilir. Torpağın yaraları bu gülüşlərlə sarınacaq. Öz doğmalarına həsrət qalmış torpaq sakinləri qayıtdıqca dirçələcək. Bu günümüzə şükür!

**Ruhiyyə RƏSULOVA**



# Azərbaycan-Çin: dünya geoiqtisadi nizamının formalaşmasında mühüm faktor

Coğrafi mövqe baxımından bir-birindən uzaqda yerləşən Azərbaycanla Çin arasında mehriban dostluq və əməkdaşlıq münasibətləri vardır. Ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından ötən 33 illik dövrdə ikitərəfli münasibətlər ilbəil daha da güclənərək artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

## Bal ətirli söhbətlər

Otuz üç il əvvəl barıt və qan qoxulu soyuq fevral gecəsində erməni zülmündən qaçıb Ağdama çatmaq istəyən məsum insanlara, "Bir gün gələr isti evinizdə dövlət başçınızla birgə ballı çay içərsiniz", – desəydilər, bu, bəlkə də, onlara heç zaman həyatda görə bilməyəcəkləri şirin bir yuxu kimi gələrdi. Amma bunu da gördük və çox şükür indi ballıcalı sakinlər, bəlkə də, bu dünyanın ən xoşbəxt insanlarıdır ki, qalib ölkənin qalib dövlət başçısı Prezident cənab İlham Əliyev onların evinə qonaq gəlib, onların uzun illər həsrətində olduğu gözəl günlərin rəsmən açılışını etdi.



Ölkə başçımız, Prezident cənab İlham Əliyevin erməni işğalından azad olunmuş torpaqlarımıza hər bir səfəri istər burada yenidən məskunlaşan yerli sakinlərdə, istərsə də bütün ölkədə böyük sevincə səbəb olmaqla qalib dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi Böyük Qayıdış üzrə işlərinin tam sürət və qətiyyətlə davam etdiyini bir daha göstərir. Otuz ildən artıq bir müddətdə isti ocağından ayrı düşmüş insanları doğma yuvasına qaytaran bu qayıdışdan bəhrələnən hər bir keçmiş məcburi köçkün ailəsi onlara qonaq gələn dövlət başçımızı böyük sevinclə qarşılayır, bunu həyatlarının ən yaddaqalan hadisəsi kimi qeyd edir.

Hələ Ulu Öndər Heydər Əliyev Biləsuvarda çadır şəhərciyində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin toy şənliyinə qatılanda bu günlərin də uzaqda olmadığını, bir gün gələr, Şuşanın, Xankəndinin, Ağdamın, Kəlbəcərin, Laçının, Qubadlının, Zəngilanın geri alınacağını, Xocalının qisasının qiyamətə qalmayacağını gözləri nisgil dolu insanlara vəd etmişdi. Və ata nəsihətinə sadiq olan, bu gün bu mürəkkəb dünyada dünyanın ən xoşbəxt adamı olan dövlət başçımız cənab İlham Əliyevin "Vur!" əmri ilə coşan igid oğullarımız cəmi 44 günə bu gözəl, bərəkətli torpaqları erməni mikrobundan təmizlədi. Ermənilərdən miras qalmış bataqlıqları qurutmaq üçün isə bir günü belə keçmədən konkret quruculuq və abadlıq işlərinə başlayan Azərbaycan dövləti qısa müddətdə Xirosima xarabalıqlarını xatırladan bu yerlərə mədəniyyət, iqtisadiyyat, rifah gətirdi. İndi bir zamanlar ayaqqabısını geyinməyə, isti paltarını belə götürməyə macal tapmadan evini, əşyalarını, həyət-bacasını, mal-qarasını erməni talançılarına tərk edən xocalılılar arı yeşiklərini həyətlərinə düzüb güllə səsləri gəlməyən, sakit, gözəl həyatın, təmiz havanın, sərin bulaqların bal kimi dadını çıxarırlar.

Ballıcada bal dadıb, sakinlərlə şirin söhbət etmək çox gərgin iş qrafikinə malik dövlət başçımız üçün də bir az dincəlmək fürsəti oldu. Ölkəmizin iqtisadi və sosial məsələlərinin və xarici siyasətdəki mürəkkəb münasibətlərin həllində əməyinin boşa getmədiyinə, qarşıya qoyduğu vəzifələrin tam yerinə yetirildiyinə şahid olan Prezidentimiz üçün sadə bir vətəndaşının evinə qonaq olub, çay içmək onun hər zaman xalqın içində olduğunu, xoşbəxt həyat yaşayan insanların sevincini bölüşdüyünü bütün dünyaya bir daha göstərdi. Bu çay süfrəsi, buradakı şirin söhbətlər bir daha göstərdi ki, çətinliyə düşsə də, işğala məruz qalsa da, səbir edib, güc qazanıb böyük qələbə gününə hazırlaşan və bunu bacaran Azərbaycan öz qalib Sərkərdəsi ilə həmişə fəxr edir. Beləcə, ölkəmizin hər bir vətəndaşı sevdiyi dövlət başçısını evində qonaq edib, onu qucaqlayan, onunla gözəl arzuları paylaşan insanlarla birgə olduqda onların bu gözəl xatirələrini bal ətirli söhbətlərindən bir daha eşidəcək.

**Əli CABBAROV**

Ümumiyyətlə, Azərbaycanla Çini yaxın və uzaq gələcəyə dair yaxınlaşdıran maraqlar çoxcəhətlidir. İkitərəfli əlaqələrdən, münasibətlərdən danışan zaman tarixi İpək Yolunun rolunu qeyd etməsək olmaz. 2013-cü ildə Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi də bir növ sözügedən tarixi ənənənin bərpası, həmin yol üzərində yerləşən ölkələr arasında iqtisadi, ticarət, mədəni əlaqələrin qurulmasına hesablanıb. Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən sayılan Azərbaycan da malik olduğu mövqedən səmərəli istifadə etməklə "Bir kəmər, bir yol" layihəsinin reallaşması yönündə fəal iş aparır. 2015-ci ilin dekabrında Prezident cənab İlham Əliyevin Çinə səfəri zamanı ikitərəfli əməkdaşlıqda mühüm önəm daşıyan "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu"nun imzalanması bu istiqamətdə güclü dəstəyin göstəricisidir. 2017-ci ilin oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə həmin layihəni praktiki şəkildə təsdiqləmiş olan ölkəmizin bu mütərəqqi addımı Çin hökuməti tərəfindən daim yüksək dəyərləndirilir.

Prezident cənab İlham Əliyevin apardığı uğurlu diplomatiya sayəsində Çinlə mehriban dostluq və tərəfdaşlıq əlaqələri bu gün dinamik inkişaf mərhələsini yaşayır. Liderlər səfərlər çərçivəsində, eləcə də müxtəlif beynəlxalq tədbirlərdə çıxışları zamanı dost, tərəfdaşlıq mesajlarını ötürürlər. Bu baxımdan Çin Xalq Respublikasının sədri Si Cinpinin cənab İlham Əliyevi Çinin böyük dostu adlandırması olduqca təqdirədici məqam, önəmli faktordur. Prezident cənab İlham Əliyev də Çinlə əlaqələri nəqliyyat-logistika baxımından yüksək qiymətləndirir: ***"Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var".***

### "Bir kəmər, bir yol" təşəbbüsü: Orta Dəhliz, Zəngəzur dəhlizi

Azərbaycan və Çin əlaqələrində 2024-cü ili müstəsna əhəmiyyətli dövr kimi xarakterizə etmək olar. Belə ki, ötən il iyulun 3-də imzalanan Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə ölkələrarası qarşılıqlı etimadın və əməkdaşlığın təməlləri daha da möhkəmləndirilib. Bəyannamədə Çin tərəfi Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) tikintisində və istismarında fəal iştirak etməyə, Çin-Avropa və əksinə, istiqamətdə cənub dəhlizinin yük qatarları üçün fasiləsiz işini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrut boyu yerləşən digər ölkələrlə daha sıx işləməyə, regional praktiki əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyini və sabitliyini birgə təmin etməyə hazır olduğunu bildirir. Bu xüsusda onu vurğulamaq yerinə düşər ki, hazırda nəqliyyat-logistika baxımından Azərbaycan-Çin strateji tərəfdaşlığına mühüm töhfə kimi "Bir kəmər, bir yol" təşəbbüsünə daxil olan Orta Dəhliz Mərkəzi Asiya və Azərbaycandan keçməklə çox perspektivli bir layihəyə çevrilməkdədir. Ümumiyyətlə, iki dövlət arasında son 10 il ərzində iqtisadi sahədə əsas müzakirə mövzusu məhz sözügedən layihədir.

Bu çərçivədə ötən il bir sıra əlamətdar hadisələr yaşanıb, Orta Dəhlizlə yükdaşımalarda növbəti nailiyyətlərdən biri kimi mart ayında Sian limanından birinci konteyner blok-qatarı yola salınıb. İlk qatar Bakıyadək məsafəni 11 günə qət edib. Noyabrın 24-də isə Bakı-Sian ilk ixrac blok-qatarı ilə 62 ədəd 40 futluq konteyner həcmində 1664 ton koks yükü multimodal olaraq Qazaxıstan üzərindən Çinin ən böyük quru limanlarından biri olan Siana göndərilib. Bununla da yerli sahibkarlar üçün yüklərini birbaşa Çin bazarına çıxarmaq imkanı yaradılıb. Genişlənən əməkdaşlıqlar fonunda 2025-ci ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının 3 dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır. Reallaşdırılan birgə layihələr timsalında ötən il Azərbaycan-Çin ticarət tərəfdaşlığı xeyli gücləndirilib, ölkələrarası xarici ticarət dövriyyəsi 20,7 faiz artaraq 3,7 milyard dollar təşkil edib. Bu göstərici ilə Çin Rusiyanı qabaqlayaraq Azərbaycanın əsas ticarət tərəfdaşına çevrilib.

Azərbaycan və Çin arasında əməkdaşlıqların dərinləşdirilməsi və beynəlxalq münasibətlərin formalaşmasına töhfə olaraq çoxtərəfli dialoqun möhkəmləndirilməsi baxımından Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) rolunu xüsusi vurğulamaq lazımdır. 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunan təşkilatda Azərbaycan hazırda dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Prezident cənab İlham Əliyevin təşkilatın sammitlərinə müntəzəm dəvət edilməsi ölkəmizin həyata keçirdiyi diplomatiyaya, iqtisadi əməkdaşlıqlar müstəvisində verdiyi töhfələrə etimadın, etibarın nəticəsidir.

Dövlət başçımız bu il yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində də Azərbaycanla Çin arasındakı strateji tərəfdaşlığın yüksəksəviyyəli qarşılıqlı etimada, əməkdaşlığa əsaslandığını qeyd etdi, birgə layihələrin beynəlxalq əlaqələrin daha güclənməsinə mühüm töhfələr verəcəyini vurğuladı. Sitat: ***"Beynəlxalq təşkilatlarla işləyəndə və ya onlarla daha yaxın olmaq istəyəndə siz təşkilatın tərkibinə, üzv ölkələrinə nəzər salırsınız. Şanxay Əməkdaşlıq Təşkilatının və BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla çox yaxşı və dost münasibətləri var. Bundan başqa, bizim coğrafi mövqeyimiz, Cənubi Qafqaz və Xəzər regionunda vahid məqsədlərə töhfəmiz nöqteyi-nəzərindən əhəmiyyətli olacaq. Əlbəttə ki, Çin və Mərkəzi Asiya ölkələri ilə üzərində fəal iş apardığımız məsələlər, həmçinin bağlılıq layihələridir. Çünki Azərbaycan artıq müasir nəqliyyat infrastrukturu ilə Şərqdən Qərbə gedən yol üzərində yerləşir. Beləliklə, biz praktiki nəticələr nöqteyi-nəzərindən çoxlu töhfə verə bilərik".***

Azərbaycan-Çin əlaqələrinin möhkəmləndirilməsi baxımından 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni reallıqlar fonunda Prezident cənab İlham Əliyevin irəli sürdüyü Zəngəzur dəhlizi layihəsi də dünyanın ikinci ən böyük iqtisadiyyatına malik ölkəsinin xüsusi marağındadır. Belə ki, dəhliz tarixi İpək Yolunun bərpasını hədəfləyən "Bir kəmər, bir yol" təşəbbüsü üçün mühüm perspektivlər vəd edir. Trans-Avrasiya yük daşımalarının beynəlxalq koordinasiya şurasının baş katibi Qenadi Bessonov 2023-cü ildə mətbuata verdiyi müsahibəsində də vurğulayıb ki, Zəngəzur dəhlizi müxtəlif seqmentlərdən ibarət olmaqla Çin ilə Avropanı birləşdirəcək. Bu layihədə dünyanın iqtisadi nəhəngi hesab olunan Çinin xüsusi marağı var və Orta Asiya respublikaları ilə birlikdə sammit keçirib dəmir yolu xəttinin çəkilməsi barədə müqavilə imzalaması da təsadüfi xarakter daşımır.

Ümumilikdə, təməli tarixi İpək Yoluna söykənən ictimai-mədəni əlaqələri, otuz üçillik diplomatiyanı, strateji tərəfdaşlığı, dostluq münasibətlərini analiz edəndə o nəticəyə gəlirik ki, dövrün çətin sınaqlarına sinə gərən bu iki ölkə – Çin və Azərbaycanı dəyişən dünya düzəni timsalında bağlayacaq bağlar yaxın gələcəkdə daha da çoxalacaq. Əminik ki, Prezident cənab İlham Əliyevin məharətli diplomatiyası sayəsində tezliklə Zəngəzur dəhlizi layihəsinin açılması Orta Dəhlizin geosiyasi əhəmiyyətinin daha da artmasına və beləliklə, "Bir kəmər, bir yol" təşəbbüsünün böyük mənada gerçəkləşməsinə şərait yaradacaq. Bununla da Azərbaycan-Çin əlaqələri nəinki beynəlxalq münasibətlərin tənzimlənməsində, eləcə də dünya geoiqtisadi nizamının formalaşmasında daha mühüm faktora çevriləcək.

**Nail ƏSGƏROV**

# NDU-da 2024-2025-ci tədris ilinə aid təcrübələrin başlanğıc konfransı, dövlət-universitet-sənaye əməkdaşlıq platformasının görüşü olub



Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində 2024-2025-ci tədris ilinə aid təcrübələrin başlanğıc konfransı keçirilib. Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, rəsmi şəxslər, ictimaiyyət nümayəndələri, NDU-da fəaliyyət göstərən müəllimlər və tələbələr iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin ölkəmizin sosial-iqtisadi inkişafının əsas dayaqlarından biri olduğunu vurğulayıb. Dövlət başçısının təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın bu sahədə mühüm islahatları özündə ehtiva etdiyini qeyd edib. Eyni zamanda proqram çərçivəsində institusional inkişaf, idarəetmə sisteminin modernləşdirilməsi, insan kapitalının gücləndirilməsi və innovasiyaların tətbiqi kimi strateji istiqamətlərin müəyyən edildiyini bildirib. Samir Seyidəhmədli dövlət qurumları ilə gənclər arasında əməkdaşlığın gücləndirilməsi, onların gələcək karyera inkişafına dəstək verilməsi və əmək bazarının tələblərinə uyğun peşəkar kadrların hazırlanmasının nəzəri və praktik aspektlərinə toxunub. Universitetlər və dövlət qurumları arasında birgə fəaliyyətin gücləndirilməsinin, tələbələrin yalnız formal təcrübə ilə kifayətlənməyib, öz bacarıqlarını daim təkmilləşdirmələrinin önəmindən bəhs edib.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev universitet həyatında pedaqoji təcrübə və istehsalatın bir-birini tamamlayan iki mühüm hadisə olduğunu bildirib. Naxçıvan Dövlət Universitetinin 2024-2025-ci tədris ilinə aid təcrübələrin başlanğıc konfransını öz tərkibi ilə dövlət-universitet-sənaye əməkdaşlıq platformasının görüşü mahiyyəti daşıdığını vurğulayıb. Rektor ali təhsil ocağının təhsilin müxtəlif səviyyələrini əhatə edən istənilən işəgötürən müəssisə həm dövlət, həm də özəl müəssisələr üçün kadr hazırlığı potensialının olduğunu qeyd edib. Bildirib ki, 2024-2025-ci tədris ilinin ikinci yarısında Naxçıvan Dövlət Universitetində universitet üzrə təcrübəyə 1 555 tələbə gedəcək. Onlardan 1 345 tələbə əyani, 210 tələbə qiyabidir. Tələbələrin istehsalat təcrübəsi 4 həftəlik, 5 həftəlik, 14 həftəlik və 20 həftəlik olmaqla, 43 müəssisə və təşkilatda təşkil ediləcək. 83 ixtisas üzrə 1 112 nəfər tələbə göndəriləcək. İstehsalat təcrübələrinə, ümumilikdə, 107 təcrübə rəhbəri təyin olunub. Pedaqoji təcrübələr 20 həftə davam edəcək. Eyni zamanda elmi-tədqiqat təcrübəsində 14 ümumi təhsil müəssisəsində 21 ixtisas üzrə 443 nəfər tələbə pedaqoji təcrübə keçəcək. Pedaqoji təcrübələrə, ümumilikdə, 137 təcrübə rəhbəri təyin olunub. Qeyd edək ki, bundan əlavə, hal-hazırda 216 nəfər magistr elmi tədqiqat təcrübəsi keçməkdədir.



Daha sonra Naxçıvan Dövlət Universitetinin ötən tədris ilinin təcrübələrindən hazırlanan videoçarx izlənilib, çıxışlar dinlənilib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə gənclərlə işin təşkili, onların peşəkar kadr kimi formalaşması, eyni zamanda əmək bazarına daxil olan alitəhsilli gənclərin məşğulluğunun təmin edilməsi yönündə fəaliyyətlərindən bəhs edib. Bu fəaliyyətlərin təşkilində universitet-sənaye işbirliyinin ölkənin iqtisadi inkişafına və işçi qüvvəsinin potensialının artırılmasına mühüm töhfə olduğunu vurğulayıb. Naxçıvan Dövlət Universitetinin Karyera, təcrübə və məzunlarla iş sektorunun müdiri Aynurə Seyidova "Təcrübələrin təşkilinə dair tələblər və qarşıda duran vəzifələr" barədə məlumat verib.

Daha sonra sual-cavab sessiyası olub, rəsmi şəxslər tələbələri maraqlandıran sualları cavablandırıb.

Sonda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbi ilə tanışlıq olub.

# Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib



Fevralın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələlərin "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin müzakirəsi və "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında" Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsi olduğunu bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə əlaqədar Ali Məclis sədrinin birinci müavini bildirib ki, muxtar respublikada həyata keçirilən struktur islahatları, səlahiyyətli nümayəndəlik institutunun yaradılması, yeni idarəçilik qaydalarının tətbiqi, dövlət orqanlarının yenidən formalaşdırılması və qanunvericilik sisteminin təkmilləşdirilməsi kimi tədbirlər Naxçıvan Muxtar Respublikası Konstitusiyasında da dəyişikliklərin edilməsini zəruri edib. Hazırlanmış qanun layihəsi qeyd olunanları əhatə etməklə muxtar respublikada yeni idarəetmə modelinin tətbiqini nəzərdə tutur.

Qanun layihəsi barədə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Layihənin müzakirəsi ilə bağlı deputatlardan Təhminə Babayeva və Əziz Qasımov çıxış ediblər.



Bəxtiyar Məmmədov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr Ali Məclisdə iki dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir. Konstitusiyaya dəyişikliklər Ali Məclisdə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir.

Müzakirə olunan məsələ ilə bağlı qanun səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ ilə əlaqədar Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsinin layihəsi Ali Məclisin müzakirəsinə çıxarılması üçün Ali Məclisin Hüquq siyasəti komitəsinə göndərilib. Layihə Hüquq siyasəti komitəsində müzakirə olunub, komitənin qərarı ilə Ali Məclisin müzakirəsinə tövsiyə edilib.



Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü ildə muxtar respublikada insan hüquqlarının qorunması haqqında fəaliyyətinə dair məruzə edib.

Məruzə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev komitənin rəyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# "Dəstək" Fondunun Himayəçilik Şurasının yeni tərkibdə təsdiq edilən iclası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən iclasda, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə "Dəstək" Fondu Himayəçilik Şurasının tərkibinin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 31 yanvar tarixli Sərəncamını diqqətə çatdırıb.

Fondun Himayəçilik Şurasının yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən hərbi əməliyyatlar nəticəsində yaralanan şəxslərin, müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsində vətəndaş cəmiyyəti təşəbbüslərinin və bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

İclasda nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Atabəy Məmmədli fondun cari gündək fəaliyyəti ilə bağlı hesabatı təqdim edib.

Himayəçilik Şurasının üzvlərindən Qəzənfər Abdullayev, İsmayıl Hacıyev, Gülşad Rüstəmova və Aytən Məmmədova çıxış edərək "Dəstək" Fondunun maliyyə dayanıqlılığının artırılması istiqamətində fikir və təkliflərini səsləndiriblər. Fonda ianələrin edilməsi qaydaları və ianə kampaniyaları barədə KİV-də geniş təbliğat işinin aparılması, habelə müvafiq istiqamətdə maarifləndirici videoçarxların, media materiallarının hazırlanması təklif edilib. Himayəçilik Şurasının üzvlərinin təklifləri əsasında birgə fikir mübadiləsi aparılıb. Verilən təkliflər əsasında Tədbirlər Planının hazırlanması qərarlaşdırılıb.



# Son zamanlarda Naxçıvanda qida təhlükəsizliyi ilə bağlı mühüm tədbirlər görülür

## *Müsahibimiz Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Səfərali Nəsirovdur*

***Qida təhlükəsizliyi, əhalinin sağlam və dayanıqlı qida məhsulları ilə təmin edilməsi, ölkədə istehsal olunan, kənardan gətirilən qida məhsullarına nəzarət, onların sağlamlığının yoxlanılması müasir dövrün əsas məsələlərindən biridir. Ölkəmizdə bu vəzifələri Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yeni yaradılan qurum olsa da, bu istiqamətdə kifayət qədər işlər görüb. Biz də agentliyin fəaliyyət istiqamətləri, keçən müddət ərzində gördüyü işlər haqqında məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Səfərali Nəsirovla həmsöhbət olduq.***



***– Səfərali müəllim, əvvəlcə bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi kifayət qədər geniş səlahiyyətlərə malikdir. İstərdim, ilk olaraq buradan başlayaq.***

– Öncə "Şərq qapısı" qəzetinə və onun kollektivinə, şəxsən sizə öz adımdan və Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin kollektivi adından hazırda çox aktual olan və vahid sağlamlıq konsepsiyasının əsas elementlərindən sayılan qida təhlükəsizliyi məsələlərinə yer ayırdığınız üçün dərin hörmət və minnətdarlığımızı bildiririk.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 3 noyabr tarixli müvafiq Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsi və strukturu təsdiq olunub. Əsasnamənin müvafiq bəndinə əsasən agentlik, Naxçıvan Muxtar Respublikasında qida təhlükəsizliyi sahəsində qeydiyyatı və təsdiqi, idxal sağlamlıq aktının, sağlamlıq, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida zəncirinin bütün mərhələlərində qida və yem məhsullarının, qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyinə, qida məhsullarının minimum keyfiyyətinə, həmçinin qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi sahələrində dövlət nəzarətini və tənzimləməni həyata keçirən, habelə dövlət siyasətinin həyata keçirilməsində iştirak edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Agentliyin fəaliyyətinin əsas məqsədi muxtar respublikada əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin edilməsinə və bununla da qida mənşəli xəstəliklərin əhəmiyyətli dərəcədə azalmasına, kənd təsərrüfatı və qida məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsinə, xarici bazarlara ixracının həcminin artırılmasına nail olmaqdan ibarətdir. Vurğulamaq istərdim ki, ilkin istehsaldan – yəni tarladan və ya fermadan süfrəyə qədər, istehsalçıdan istehlakçıya çatanadək, qida zəncirinin hər bir mərhələsində fiziki, kimyəvi və mikrobioloji çirklənmə riskindən azad edilmiş məhsul təhlükəsiz qida sayılır.

Bildirim ki, yeni yaradılmış qurum olaraq funksional fəaliyyətimizin ilk dövründə dövlət nəzarəti tədbirləri çərçivəsində əsas prioritetimiz ciddi pozuntular olmadığı təqdirdə yoxlamalar aparmaq və məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarlar qəbul etmək deyil, qida subyektlərinin və obyektlərinin qida təhlükəsizliyinin təmin edilməsi barədə müvafiq normativ texniki sənədlərə əsasən qüvvədə olan tələblər barədə maarifləndirmə işlərindən ibarət olub. Belə ki, ötən il ərzində agentlik tərəfindən pərakəndə satış, topdansatış, ət satışı, ictimai iaşə, dönərxana, bazar, şadlıq evi, emal müəssisəsi, aptek, otel və sair olmaqla, ümumilikdə, səyyar formada 1316 obyektdə maarifləndirmə işləri aparılmış, həmçinin daha həssas qrup olan uşaqların təhlükəsiz qidalanması üçün 205 məktəbəqədər və təhsil müəssisəsinin nümayəndələri ilə maarifləndirici görüşlər keçirilmiş və qida təhlükəsizliyi sahəsində texniki-normativ hüquqi aktların tələblərini özündə əks etdirən bildirişlər təqdim olunmuşdur.







***– Lakin son günlərdə Naxçıvanda bir sıra ictimai iaşə obyektlərində Qida Təhlükəsizliyi Agentliyi tərəfindən aparılan yoxlamalar xoşagəlməz vəziyyətlər ortaya çıxardı.***

– Əhalinin qida təhlükəsizliyi sahəsində həyat və sağlamlığının qorunması məqsədilə agentlik tərəfindən mütəmadi olaraq qida obyektlərində dövlət nəzarəti tədbirləri aparılır. Yoxlama, təftiş, reyd və monitorinqlər zamanı uyğunsuzluqlar və nöqsanlar aşkarlandıqda qanunvericiliyə uyğun tədbirlər görülür. Qida məhsullarının risk səviyyəsindən və mövsümdən asılı olaraq daha sıx nəzarət tədbirləri həyata keçirilir. Bu məhsullara ət və ət məhsulları, süd və süd məhsulları və digər tez xarab olan məhsullar aiddir. Əhali arasında baş vermiş qida zəhərlənmələri hallarının təhlil edilməsi, habelə onların yayılmasının qarşısının alınması və aradan qaldırılması istiqamətində müxtəlif tədbirlər icra olunur. Buna misal olaraq deyə bilərəm ki, ötən il ərzində muxtar respublikada fəaliyyət göstərən 47 dönərxanada 96 halda monitorinq aparılmış, nöqsanlar aşkar olunmuş, bununla bağlı sağlamlaşdırıcı tədbirlərin görülməsinə dair icrası məcburi göstərişlər verilmişdir. Nəzarət tədbirləri zamanı 22 halda dönər və dönərdə istifadə olunan mayonez əsaslı sous məhsulundan nümunə götürülərək analiz olunması üçün Naxçıvan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim olunmuşdur. Mövcud resurslar daxilində bəzi keyfiyyət göstəriciləri üzrə müayinələr aparılmış, 19 halda nəticələrin uyğun olduğu, 4 halda nəticələrdə uyğunsuzluqlar aşkarlanmışdır. Bununla əlaqədar qanunvericiliyə uyğun tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, qeyd etdiyiniz kimi, muxtar respublikanın müxtəlif şəhər və rayonlarında yerləşən ictimai iaşə obyektlərində də aparılan nəzarət tədbirləri zamanı bir sıra nöqsanlar aşkarlanmışdır. Cari ildə monitorinqlər və plandankənar yoxlamalarla yanaşı, Sahibkarlıq Sahəsində Aparılan Yoxlamaların Vahid Məlumat Reyestrinə 2024-cü ildə daxil edilmiş plan üzrə yoxlamalar da həyata keçirilməkdədir. Onu da qeyd edim ki, qanunvericiliyə uyğun olaraq planlı yoxlamanın keçiriləcəyi təsərrüfat subyektinə ən azı 5 iş günü öncədən yazılı məlumat verilməsinə baxmayaraq, təəssüflər olsun ki, əksər hallarda aparılan yoxlamalar zamanı həmin obyektlərdə ciddi nöqsanlar aşkarlanmışdır. Aşkarlanmış nöqsanlarla bağlı tərəfimizdən müvafiq məhdudlaşdırıcı tədbirlər həyata keçirilmiş və məcburi göstərişlərin yerinə yetirilməsinin icrası ilə əlaqədar olaraq təkrar baxış zamanı kafe və restoranlar tərəfindən nöqsanların aradan qaldırılması öz təsdiqini tapmışdır.

***– Son zamanlar satışda olan çörəklərin qablaşdırıldığını müşahidə edirik. Bu istiqamətdə agentliyin gördüyü işləri bilmək istərdik.***

– Çörək məhsulları elə qida məhsullarındandır ki, istehlakdan öncə onu yumaq, hər hansı təmizləyici vasitə ilə təmizləmək mümkün deyil. Məhz bu səbəbdən agentlik tərəfindən muxtar respublikada fəaliyyət göstərən çörək emalı müəssisələrində aparılan maarifləndirmə işləri və nəzarət tədbirləri nəticəsində çörəklərin qablaşdırılmasına nail olunmuşdur. Məqsədimiz çörəyin emal olunduğu andan istehlakçıya qədər keçdiyi yolda çirklənmə riskini minimuma endirməkdir. Aparılan nəzarət tədbirlərinin nəticəsidir ki, normativ sənədlərin tələblərinə cavab verməyən çörək emalı müəssisələrinin birində hazırda əsaslı təmir işləri aparılır və müasir avadanlıqlarla təchiz ediləcəyi barədə agentliyə məlumat verilmişdir. Məlumat üçün bildirim ki, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin 2024-cü il 14 may tarixli 47 nömrəli Kollegiya Qərarı ilə "Buğda ununa dair sanitariya norma və qaydaları" və "Çörək məhsullarına dair sanitariya norma və qaydaları" təsdiq edilmişdir. Qaydalara əsasən çörəklərin təhlükəsizlik və minimum keyfiyyət göstəricilərinə nəzarət etmək məqsədilə nümunələr seçilərək laborator müayinələrə də cəlb olunur.

***– Bununla belə vətəndaşların bir çoxu agentliyi yalnızca ictimai iaşə obyektlərində yoxlamalar aparan bir qurum kimi tanıyır. Halbuki muxtar respublikanın Qida Təhlükəsizliyi Reyestrini aparmaq, baytarlıq və fitosanitar sertifikatlarını vermək sizin səlahiyyətləriniz daxilindədir.***

– Bəli, düz buyurursunuz, sadaladığınız istiqamətlər də agentliyin funksional fəaliyyətinə aid sahələrdəndir və bu istiqamətdə də mütəmadi olaraq işlər aparılır. Belə ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il üçün epizootiya əleyhinə Tədbirlər Planı" hazırlanmış, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə razılaşdırılaraq agentlik tərəfindən təsdiq olunmuş və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə təqdim olunmuşdur. Tədbirlər Planına uyğun olaraq ötən il ərzində muxtar respublika ərazisində ilk dəfə olaraq quş qripi xəstəliyinə qarşı 5 halda, süni balıqyetişdirmə təsərrüfatlarında infeksion və invazion xəstəliklərə qarşı 1 halda, yüksək riskli ərazi hesab olunan Ordubad və Kəngərli rayonlarında bruselyoz xəstəliyinə qarşı, atlar arasında kontagioz metrit, at qripi, rinopnevmoniya, atların taunu xəstəliklərinə qarşı, arılar arasında bakterioloji və parazitoloji xəstəliklərə qarşı, iribuynuzlu və xırdabuynuzlu heyvanların peyvənd olunduqdan sonra immun fonun təyin olunması və xüsusi təhlükəli xəstəliklərə görə epizootoloji şəraitin öyrənilməsi ilə bağlı 3 halda epizootoloji monitorinqlər keçirilmiş, müvafiq qaydada qan, yaxma və patoloji material nümunələri götürülərək laboratoriya analizləri aparılmışdır.

Həmçinin baytarlıq nəzarəti tədbirləri çərçivəsində ötən ilin 16 may tarixindən etibarən agentlik tərəfindən quş, iribuynuzlu və xırdabuynuzlu heyvanların kəsiminə baytarlıq nəzarəti tədbirləri başladılmış və hazırda satış məqsədli heyvanların daşınması və kəsimi agentlik əməkdaşlarının nəzarəti ilə həyata keçirilir.

Bunlarla yanaşı, baytarlıq preparatlarının keyfiyyəti də əsas nəzarət predmetlərindən biri kimi diqqətdə saxlanılır. Ötən il ərzində muxtar respublika ərazisində fəaliyyət göstərən 24 baytarlıq aptekində monitorinq həyata keçirilmiş, 51 adda son istifadə müddəti bitmiş, 3 müxtəlif qablaşdırma formasında (cəmi 25 kq/l) mənşəyi məlum olmayan baytarlıq preparatı aşkarlanmışdır. Həmin preparatlar satış dövriyyəsindən kənarlaşdırılaraq toxunulmazlığı təmin edilmiş və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məhv edilmişdir.

Sualınızda qeyd etdiyiniz baytarlıq və fitosanitar sertifikatları, həmçinin, ümumilikdə, agentlik tərəfindən verilən icazə sənədləri və qida təhlükəsizliyi sahəsində reyestr və qeydiyyatın aparılması məsələlərinə də toxunmaq istərdim. Bildiyimiz kimi, qida təhlükəsizliyi – qida zəncirinin bütün mərhələlərində, habelə qida məhsullarının istehlakı zamanı qida məhsullarının insanların həyat və sağlamlığına zərər vurmasını tam istisna edən vəziyyətidir. Bu mənada, idxal-ixrac qida zəncirinin mühüm mərhələlərindən biridir və bu mərhələdə qida təhlükəsizliyi nəzarəti, baytarlıq və fitosanitar sahəsinə aid edilən məhsullara nəzarət xüsusi olaraq diqqət mərkəzində saxlanılır. İdxal olunan məhsullara operativ nəzarət olunması və bu zaman gömrükdə gecikmələrə yol verilməməsi üçün Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" İnformasiya Sistemində yaradılmış Naxçıvan modulundan istifadə olunur. Bu modul üzərindən qida və yem məhsullarına ilkin sənəd nəzarəti aparılaraq yekun rəy real vaxt rejimində gömrük orqanlarına göndərilir.

Qeyd olunan modul üzərində aparılan təkmilləşdirmə işləri başa çatdıqdan sonra fitosanitar və baytarlıq nəzarəti sahəsinə aid edilən məhsulların idxal və ixrac əməliyyatlarının elektron formada həyata keçirilməsi nəzərdə tutulur. 2024-cü il ərzində agentlik tərəfindən idxal-ixrac üzrə yerinə yetirilmiş nəzarət tədbirləri zamanı qida və yem məhsulları üçün idxal sağlamlıq aktı, sağlamlıq sertifikatı, idxal olunan diri heyvanlara və heyvan mənşəli məhsullara baytarlıq idxal icazəsi, idxal olunan baytarlıq preparatlarına idxal rəyi, baytarlıq sertifikatı, ixrac fitosanitar sertifikatı, idxal karantin icazəsi, idxal rəyi olmaqla, ümumilikdə, 2958 icazə sənədi verilmişdir.

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qida zəncirinin müxtəlif mərhələlərində (ilkin istehsal, istehsal, emal, ictimai iaşə, daşınma, saxlanma, idxal, ixrac və sair) fəaliyyət göstərən təsərrüfat subyektləri (obyektləri) müvafiq qaydada qida təhlükəsizliyi qeydiyyatından keçdikdən sonra fəaliyyət göstərə bilərlər. Qeydiyyatdan keçməyən qida obyektinin və ya subyektinin fəaliyyəti qadağandır. Agentliyin əməkdaşları tərəfindən aparılmış maarifləndirmə tədbirlərinin nəticəsi olaraq ötən il ərzində qida təhlükəsizliyi qeydiyyatı ilə bağlı, ümumilikdə, 441 müraciət qəbul olunmuş, 439 subyekt qeydiyyata alınaraq dövlət reyestrinə daxil edilmiş, 2 müraciətə imtina qərarı verilmiş, 17 obyektin qeydiyyatı ləğv edilmişdir.

***– Onu da bildirməliyik ki, qida təhlükəsizliyi istiqamətində də görülən işlər təkcə heyvan mənşəli məhsullardan ibarət deyil. Muxtar respublikada fitosanitar nəzarəti də sizin qurumun səlahiyyətlərinə aid edilən məsələlərdəndir.***

– Fitosanitar nəzarəti sahəsi üzrə agentliyin əsasnaməsinə və təsdiq edilmiş digər sənədlərə uyğun olaraq 2024-cü ildə bir sıra işlər həyata keçirmişdir.

Belə ki, ilkin istehsal təsərrüfatlarında, (tumlu və çəyirdəkli, üzüm, kartof, xiyar, pomidor, soğan, qarğıdalı və sair təsərrüfatlarda) eləcə də park və yaşıllıqlarda müşahidə və monitorinqlərin sistemli və planlı olaraq həyata keçirilməsi məqsədilə agentlik tərəfindən "Monitorinq Planı" hazırlanaraq təsdiq edilmiş, işçi qrup yaradılmış və plana əsasən monitorinqlər aparılmışdır.

Monitorinqlər çərçivəsində Naxçıvan şəhəri və 7 rayon üzrə 21 yaşayış məntəqəsində 8 park və yaşıllıq ərazisini əhatə etməklə 42 ilkin istehsal təsərrüfatından, əkinlərin, təxminən, 5 faizə qədər hissəsindən təsadüfi seçmə üsulu ilə karantin nəzarətində olan sahələrdən və zərərli orqanizmlərlə sirayətlənmə əlamətləri olan bitkilərdən nümunələr götürülərək yoxlanılması üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Mərkəzi Fitosanitar Laboratoriyasına göndərilmişdir. Müayinə nəticələrinə əsasən fitosanitar vəziyyətin sabit olduğu məlum olmuşdur. Monitorinqlər zamanı təsərrüfat sahiblərinə zərərli orqanizmlərin daha geniş ərazilərə yayılması və məhsul itkisinin qarşısının alınması məqsədilə müvafiq fitosanitar tədbirlərin görülməsi barədə tövsiyələr verilmişdir.

Plana uyğun olaraq istehlakçıların keyfiyyətli bitki mühafizə vasitələrindən istifadəsinin təmin edilməsi məqsədilə muxtar respublikada satışı həyata keçirilən və saxlanılan pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və digər bitki mühafizə vasitələrinin dövlət qeydiyyatına alınmış bitki mühafizə vasitələrinin siyahısında olub-olmaması, istifadə müddətlərinin başa çatması, qablaşdırmaların orijinallığının müəyyənləşdirilməsi, həmçinin satış yerlərinin vəziyyətinin və saxlanma şəraitinin qiymətləndirilməsi məqsədilə bu sahədə fəaliyyət göstərən subyektlərdə monitorinqlər aparılmışdır.

Bununla yanaşı, muxtar respublika ərazisində keçmiş Kənd Kimya Birliyinə məxsus olan 4 anbar və ərazidə pestisid qalıqlarının mövcudluğu və torpaqlarda çirklənmə vəziyyətinin olub-olmamasını müəyyənləşdirmək məqsədilə agentliyin mütəxəssisləri tərəfindən həmin ərazilərə baxış keçirilmiş və uyğunsuzluq aşkar olunmamışdır.

2024-cü il ərzində agentliyin əməkdaşları tərəfindən fitosanitar nəzarəti sahəsi üzrə müxtəlif mövzularda muxtar respublikanın şəhər və rayonlarında sahibkarların iştirakı ilə maarifləndirici müşavirələr keçirilmiş, həmçinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin təşkil etdiyi təlimlərdə iştirak etmişlər.

2025-ci ildə də agentlik tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq fitosanitar nəzarəti sahəsində müşahidə və monitorinqlərin aparılmasını, fitosanitar nəzarətində olan məhsullara yerində baxış keçirilməsini, sahibkarların maarifləndirilməsi məqsədilə müşavirələrin keçirilməsi davam etdiriləcəkdir.

***– Eyni zamanda qida zəncirinin müvafiq mərhələlərində işləyən şəxslərin işə qəbul olunmazdan əvvəl və işlədikləri müddət ərzində məcburi tibbi müayinədən keçmələrinə, habelə gigiyenik təlimlərə cəlb olunmalarına nəzarət etmək məsələsi də var.***

– Nəzərinizə çatdırmaq istəyirəm ki, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qida subyektlərinin qida məhsulları ilə bilavasitə təmasda olan əməkdaşları müəyyən olunmuş qaydada ilkin və dövri tibbi müayinələrdən keçirilməli, habelə gigiyenik təlimlərə cəlb olunmalıdır. Qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərinə ilkin və dövri tibbi müayinələrdən keçməmiş, habelə müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların buraxılması qadağandır. Eyni zamanda qida subyektlərinin qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası prosesləri ilə məşğul olan əməkdaşları fəaliyyətləri zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktların tələblərinə və şəxsi gigiyena qaydalarına əməl etməlidirlər.

Bununla bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 2012-ci il 13 dekabr tarixli 46 saylı "İcbari tibbi müayinələrin təkmilləşdirilməsi barədə" Qərarı ilə icbari tibbi müayinələrin keçirilməsi tələb olunan işlərin siyahısı təsdiq olunmuşdur. Həmin siyahıya tərəfimizdən qida sahəsində çalışan işçilərin tibbi müayinələrə cəlb olunması üçün mütəmadi monitorinqlər həyata keçirilməkdədir. Monitorinqlər zamanı obliqat qrup işçilərin ilkin və dövri olaraq tibbi müayinədən keçirilməsi üzrə 1234 müəssisədə dövlət nəzarəti tədbirləri aparılmış, 1807 xidmət personalının tibbi müayinədən keçmədiyi müəyyən edilmiş və icrası məcburi göstərişlər verilmişdir:

***– Səfərali müəllim, muxtar respublikada istehsal edilən və ya muxtar respublikaya idxal edilmiş təhlükəli, yararsız qida məhsullarının dövriyyədən çıxarılması və qida təhlükəsizliyi baxımından yaranmış vəziyyətin aradan qaldırılması ilə bağlı agentliyin həyata keçirdiyi tədbirlərlə tez-tez rastlaşırıq.***

– Təbii ki, idxal olunan, həmçinin muxtar respublikada istehsal olunan qida məhsullarının keyfiyyəti davamlı olaraq nəzarətdə saxlanılır. Belə ki, ötən il aparılan dövlət nəzarəti tədbirləri zamanı aşkarlanmış 341 ədəd 5 litrlik qablaşmada olan (1705 litr) saxta zeytun yağının satış dövriyyəsindən çıxarılması və məhv edilməsi təmin edilmişdir.

Alkoqollu içkilərin satışı ilə bağlı monitorinqlər zamanı 206 ədəd (51.5 litr) saxta alkoqollu içkilər satışdan çıxarılaraq məhv edilmişdir.

Satışda olan dondurmaların keyfiyyət və təhlükəsizlik göstəricilərinin AQTA tərəfindən yoxlanılması zamanı uyğunsuzluqlar aşkarlanmış dondurmalar üzrə agentlik tərəfindən monitorinqlər aparılmış və nəticədə, 19 560 ədəd dondurma məhsulunun məhv edilməsi barədə qərar qəbul olunmuş və icra edilmişdir. Həmçinin dondurma emalı müəssisələrində monitorinqlər aparılmış, 4 emal müəssisəsindən 10 halda nümunələr götürülərək bəzi keyfiyyət göstəriciləri üzrə analizlər aparılmış, 4 istehsalçıya məxsus 7 məhsulda aşkar edilmiş uyğunsuzluqlar üzrə qanunamüvafiq tədbirlər icra olunmuşdur.

Nəzarət tədbirləri nəticəsində 211 204 ədəd istifadəyə yararsız yumurtanın satışının qarşısı alınmış, məhvetmə barədə qərar qəbul olunmuş və icra edilmişdir.

Əlavə olaraq nəzarət tədbirləri nəticəsində 1217 ədəd müxtəlif növ qida məhsulu, 12 kiloqram istifadəyə yararsız toyuq əti dönəri, 29 kiloqram ət və süd məhsulu barədə məhvetmə qərarı qəbul edilmişdir.

Yeni il hədiyyə qutuları ilə bağlı aparılan monitorinqlər zamanı 348 ədəd hədiyyə qutusunun üzərindəki son istifadə tarixini bildirən məlumatlarla qutunun içərisindəki məhsulların son istifadə tarixlərinin eynilik təşkil etmədiyi aşkarlanmışdır. Təsərrüfat subyekti tərəfindən etiket məlumatları dəyişdirildikdən sonra satışına icazə verilmişdir.

İdxal olunan məhsulların üzərində Azərbaycan dilində zəruri məlumatların olub-olmaması ilə bağlı 301 qida obyektində monitorinq aparılmış, 57 524 ədəd müxtəlif növ qida məhsullarının etiketində Azərbaycan dilində zəruri məlumatların qeyd olunmadığı aşkarlanmışdır. Aşkarlanmış nöqsanların təsərrüfat subyektləri tərəfindən aradan qaldırılması təmin edilmişdir.

***– Və Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu. Bu qurum da muxtar respublika üçün yenidir.***

– Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 18 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində "Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxs yaradılmışdır. İnstitutun strukturu aparatdan və sınaq laboratoriyalarından ibarətdir.

Laboratoriyalar Mərkəzi qida sınaq laboratoriyası, Mərkəzi baytarlıq laboratoriyası, Mərkəzi fitosanitar laboratoriyası olmaqla Analitik Ekspertiza Mərkəzinin tərkibində fəaliyyət göstərir. Mərkəzi qida sınaq laboratoriyasında qida məhsullarının mikrobioloji, toksikoloji və fiziki-kimyəvi sınaqları Azərbaycan Respublikasının qanunvericilik aktlarına və normativ-texniki sənədlərə (AZS, İSO, ГОСТ, SanPin) uyğun olmaqla həyata keçirilir.

Mərkəzi baytarlıq laboratoriyasında qəbul edilən nümunələrin heyvan xəstəlikləri, baytar-sanitar təhlükəsizliyi və keyfiyyət göstəriciləri üzrə mikrobioloji, bakterioloji, seroloji analizləri aparılır. Mərkəzi fitosanitar laboratoriyasında bitki və bitkiçilik məhsullarında zərərvericilər və xəstəliklər üzrə mikoloji, bakterioloji və sair müayinələr aparılır.

Naxçıvan Qida Təhlükəsizliyi İnstitutunun fəaliyyətinin əsas məqsədi insanların həyat və sağlamlığının, həmçinin heyvan, bitki sağlamlığının qorunmasından və qida təhlükəsizliyinin səmərəli təşkilini təmin etməkdən, eyni zamanda qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmaların aparılması, risklərin elmi prinsiplərə əsaslanmaqla qiymətləndirilməsi, qida təhlükəsizliyi sahəsində texniki, normativ-hüquqi aktların layihələrinin hazırlanması, qida məhsullarının təhlükəsizlik və minimum keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri, ekspertiza və tədqiqat xidmətlərinin göstərilməsi, qida təhlükəsizliyi sahəsində əhalinin məlumatlandırılması və maarifləndirilməsindən ibarətdir.

***– Son olaraq qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərə və istehlakçılara nə demək istərdiniz?***

– Qida təhlükəsizliyi hər bir insanın sağlamlığı və rifahı üçün olduqca önəmlidir. Həm təsərrüfat subyektləri, həm də istehlakçıların üzərinə bu sahədə mühüm vəzifələr düşür. Qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən təsərrüfat subyektlərindən xahiş və tələbimiz ondan ibarətdir ki, fəaliyyət istiqamətlərindən asılı olaraq qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktların tələblərinə əməl etsinlər. İndiki və gələcək nəsillərin sağlam və təhlükəsiz qidalanması üçün öz fəaliyyətlərini günün tələblərinə uyğun təşkil etsinlər. İstehlakçılara tövsiyəmiz isə həm qida sahəsində xidmətlərdən istifadə zamanı, həm də ev şəraitində qidalanma zamanı təhlükəsizlik qaydalarına diqqət etsinlər. Qarşılaşdıqları hər hansı məsələ ilə bağlı agentliyin 545-28-83 əlaqə nömrəsi və info@nfsa.gov.az elektron poçt ünvanına məlumat vermələri xahiş olunur.

***– Maraqlı müsahibəyə görə sağ olun.***

**Məmməd BABAYEV**
*baş redaktor müavini*

## Naxçıvanda sahibkarlıq subyektləri çoxalır, yeni iş yerləri artır

Naxçıvan Muxtar Respublikasında biznes mühiti sürətlə inkişaf edir. Bu, yeni vergi ödəyicilərinin sayında da özünü göstərir. 2023-cü ildə muxtar respublikada 6263 yeni Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN) qeydiyyata alınıbsa, 2024-cü ildə bu göstərici 6682-yə çatıb. Bu isə əvvəlki illə müqayisədə 419 yeni VÖEN və ya 6,7 faiz artım deməkdir.

Vergi ödəyicilərinin sayının artması Naxçıvanda iqtisadi aktivliyin yüksəldiyini göstərir. Xüsusilə kiçik və orta biznesin inkişafına yönəlmiş tədbirlər, sahibkarlara verilən güzəştlər və dövlət dəstəyi bu artımda mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata əsasən muxtar respublikada ticarət, kənd təsərrüfatı, xidmət və istehsalat sahələrində yeni sahibkarlıq subyektlərinin yaranması ümumi iqtisadi inkişafın göstəricilərindən biridir. Bunun nəticəsi olaraq qeyri-dövlət sektorunda bağlanmış əmək müqavilələrinin sayında 01.01.2025 tarixinə əvvəlki dövrlə müqayisədə 72,8 faiz artım qeydə alınıb ki, əvvəlki ilə nisbətən bu da yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyət kəsb edir.

2023-cü illə müqayisədə qeydiyyatda olan VÖEN-lərin sayı 32,3 faiz, aktiv VÖEN-lərin sayı 71,4 faiz, aktiv obyektlərin sayı isə 19,7 faiz artıb. Bu dinamika Naxçıvanda biznes mühitinin yaxşılaşdığını və sahibkarlıq fəaliyyətinin genişləndiyini göstərir. Yeni açılan müəssisələr və artan vergi ödəyiciləri həm məşğulluğun artmasına, həm də əhalinin rifah halının yüksəlməsinə müsbət təsir edir.

## Vergi xidmətlərinə dair müraciətlərin 94,1 faizi həll olunub



Cari ilin yanvar ayında Naxçıvanda vergi orqanlarına, ümumilikdə, 144 müraciət daxil olub.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, müraciətlərin 89,6 faizini ərizələr, 10,4 faizini şikayətlər təşkil edib. Müraciətlərin 70,8 faizinin baxılması yanvar ayı ərzində başa çatdırılıb, 29,2 faizi isə hazırda icradadır. Baxılmış müraciətlərdən 94,1 faizi həll olunub, 4,9 faizi barədə müvafiq izahat verilib, qalanları ilə bağlı qanunamüvafiq qərarlar qəbul edilib.

Ötən il Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində müvafiq vəzifəli şəxslər tərəfindən, ümumilikdə, 14 vətəndaşın qəbulu təşkil olunub. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılıb, onların qanuni tələblərinin müsbət həlli üçün lazımi tədbirlər görülüb, həlli imkan xaricində olan məsələlərlə bağlı qanunamüvafiq izahatlar verilib.




# Mətbuatın 150 illiyi, “Konstitusiya və Suverenlik İli” ilə bağlı keçiriləcək tədbirlər diqqət mərkəzində olacaq

*Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” 2021-ci il 12 yanvar tarixdə imzaladığı Fərmanla Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi yaradılıb. Agentlik fəaliyyətini media sahəsinin inkişafının dəstəklənməsi, media sahəsində peşəkar mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və orada çalışan jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də sözügedən sferada yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində qurub.*

*Bununla bağlı MEDİA-nın Naxçıvan regional idarəsinin rəhbəri Vəfa İsgəndərova bildirdi ki, agentlik fəaliyyət göstərdiyi müddət ərzində nəinki mərkəzi media subyektlərinin və jurnalistlərin, həmçinin regional medianın inkişafı üçün də bir sıra layihələr və çoxşaxəli tədbirlər həyata keçirib.*



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən media subyektləri və jurnalistlər də bu baxımdan istisna deyil. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən media subyektləri üçün inkişaf proqramlarının hazırlanması məqsədilə MEDİA-nın Naxçıvan regional idarəsi tərəfindən Naxçıvanda media sisteminin cari vəziyyətinin qiymətləndirilməsi aparılmışdır. Fəaliyyət göstərdiyi bir ilə yaxın müddət ərzində idarə tərəfindən “Regional medianın inkişafı” layihəsi də daxil olmaqla bir sıra tədbirlər, könüllülük proqramı həyata keçirilib. Muxtar respublikanın media subyektləri agentliyin gerçəkləşdirdiyi müxtəlif səpkili müsabiqələrdə aktiv iştiraka cəlb olunub. Bunlardan başqa, jurnalistlərin peşəkarlıqlarının artırılması istiqamətində bir sıra təlim və seminarlar da həyata keçirilib.



Vəfa İsgəndərova onu da bildirdi ki, Medianın İnkişafı Agentliyi olaraq növbəti dövr ərzində də həm aktual, həm də medianın inkişafını dəstəkləyən müasir və innovativ proqramların reallaşdırılması istiqamətində işlərimizi davam etdirəcəyik.

Mətbuatın 150 illik yubileyi ilə bağlı agentlik tərəfindən hansı işlərin görüləcəyi barədə sualımıza cavab verən müsahibimiz deyir ki, Həsən bəy Zərdabinin əsasını qoyduğu zəngin tarixə malik Azərbaycan mətbuatının bu il 150 illik yubileyidir. Jurnalistikanın davamlı inkişafını təşviq edən Medianın İnkişafı Agentliyi bununla bağlı bir çox layihələr həyata keçirəcək. Bu tədbirlərdə digər dövlət və özəl qurumların da iştirakı nəzərdə tutulur. Həmçinin əhalinin media savadlılığının artırılması və digər maarifləndirici işlərin həyata keçirilməsi yönündə tədbirlərin icrası da planlaşdırılır.

Media könüllüləri layihəsi haqqında danışan Vəfa xanımın sözlərinə görə, bu günədək Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin təşkilatçılığı ilə Media könüllüləri və “MediaLab” proqramları çərçivəsində efirdə nitq mədəniyyəti, televiziya və radioda xəbər, effektiv PR-in əsas elementləri, mediada yeni trendlər, stres və böhran şəraitində ünsiyyət strategiyaları, media etikası, effektiv ünsiyyət bacarıqları, medianın hüquqi tənzimlənməsi, mediada iqtisadi məlumatların təhlili, media savadlılığı və başqa mövzularda təlim və seminarlar təşkil olunub. Bundan başqa, Naxçıvan media könüllüləri, Naxçıvan Televiziyası və “Şərq qapısı” qəzetinin nümayəndələrinin Bakıda keçirilən Media Savadlılığı Konfransında iştirakı təmin edilib. Media könüllülərimiz muxtar respublikamızda təşkil edilən digər dövlət tədbirlərində də aktiv iştirak ediblər. Naxçıvan media könüllülərinin Bakı media könüllüləri ilə şəbəkələşmə tədbirləri reallaşdırılıb. Fevralın 2-də Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə keçirilən Gənclər Gününə həsr olunmuş “Könüllü təşkilatlarının dayanıqlı inkişaf Forumunda Naxçıvan könüllülərindən ikisi fəxri fərmanla təltif olunub.


Vəfa İsgəndərova

Ümumən, alınan müsbət rəylərə görə, Naxçıvanda media könüllülərinin fəaliyyətini çox yüksək dəyərləndirmək mümkündür. Artıq layihənin davamını böyük ümidlərlə gözləyən çoxlu sayda gənc qeydiyyatdan keçib.





Müsahibimiz onu da diqqətimizə çatdırdı ki, Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsi bu il də müxtəlif istiqamətlərdə işlərə davam edəcək. Buraya həm jurnalistlər, həm də könüllülərin peşəkar və fərdi inkişafı üçün nəzərdə tutulan maraqlı təlim və seminarlar daxil olacaq. Mətbuatın 150 illiyi, “Konstitusiya və Suverenlik İli” ilə bağlı olan mövzular diqqət mərkəzində saxlanılacaq. Jurnalistlərin hüquqi biliklərinin artırılması yönündə silsilə tədbirlər həyata keçiriləcək. Media savadlılığı həftəsi çərçivəsində əhalinin bütün seqmentinə yönəlik maarifləndirici layihələr icra olunacaq. Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası ilə qarşılıqlı münasibətlərin genişləndirilməsi, Jurnalistika ixtisasında dərs keçən müəllim kollektivi və orada təhsil alan tələbələrlə faydalı görüşlərin keçirilməsi də nəzərdə tutulub.

Biz də Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin rəhbəri Vəfa İsgəndərovaya maraqlı söhbətinə görə minnətdarlığımızı bildirir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

**Bülbül QULİYEVA**

# Vətən üçün özünü sipər edən oğullar

***Bu gün Azərbaycanın elə bir bölgəsi, kəndi tapılmaz ki, orada ən azı bir şəhid məzarı olmasın. "Torpaq, uğrunda ölən varsa, Vətəndir!" – deyib döyüşə atılan igid oğullarımız isə minlərlədir.***



Belə igid oğullardan ikisi haqqında danışmaq istərdim. Onlardan biri Sədərək rayonunun Dəmirçi kəndindən olan şəhid Valid Qasım oğlu Məmmədovdur. Valid 1954-cü ildə Vedibasar rayonunun Çəmbərk kəndində anadan olmuşdu. İbtidai təhsilini həmin kənddə alsa da, sonra təhsilini Dəmirçi kəndində davam etdirmişdi. 1974-cü ildə həqiqi hərbi xidmətə gedən Valid indiki Azərbaycan Tibb Universitetində təhsil alaraq epidemioloq kimi Culfa rayonunda iş fəaliyyətinə başlamışdı. 1981-ci ildə Zərnişan xanımla ailə həyatı qururlar. Qasım, Araz, Anar və Süleyman adlı dörd oğul böyüdən Zərnişan xanım xatirələrini danışdıqca üzündəki qırışlar getdikcə dərinləşir: "Biz Valid ilə qohum idik. 1977-ci ildə Valid Tibb İnstitutuna daxil olduqda mən də institutda hazırlıq kursunda təhsil alırdım. Həmin vaxt ailələrimiz bizi nişanladılar. 7 il nişanlı qaldıq. Hər ikimiz təhsilimizi bitirdikdən sonra ailə qurduq.

1992-ci ilin yanvarında Valid işə başladı və təyinatını Sədərək Rayon Xəstəxanasına verdilər. Həmin vaxt Sədərəkdə döyüşlər gedirdi. Validgil tez-tez sərhəddə olur, yaralılara ilk tibbi yardım göstərirdilər. Bir gün evə bir avtobus qonaq gətirdi. Dedi ki, bunlar sədərəklilərdir. Evimizin sakini kimi qulluq edərsən. Bir neçə gün sonra mayın 6-da döyüşlər gücləndi. Valid də iş yoldaşı ilə birlikdə yaralılara ilk tibbi yardım göstərmək üçün sərhədə gedir. Yaralıları çıxaran zaman sinəsindən snayperlə vurulur. Elə oradaca şəhid olur. O, şəhid olanda balaca oğlumuzun üç, böyüyün isə on yaşı var idi. Vahid həkim, mən isə müəllim işlədim. Dörd oğlumuz, evimiz, hər şeyimiz var idi. Çox xoşbəxt idik. Amma xoşbəxtliyimiz yarımçıq qaldı".

Zərnişan xanımı dinlədikcə sanki o günlərə qayıdırıq. Odun-alovun, çətin vəziyyətin hökm sürdüyü o günlər...



Ailəsini ziyarət etdiyimiz digər şəhid isə Etibar Rzaqulu oğlu Əhmədovdur. Etibar 20 aprel 1962-ci ildə Dəmirçi kəndində anadan olmuşdu. İki oğlu, bir qızı var. Tikinti idarəsində sürücü işləyib. Vətənin üstünə yağan od-alovun qığılcımları Etibarın da evindən yan keçmir. Şəhid Etibarın həyat yoldaşı Pakizə xanım həmin günün acısını ağlaya-ağlaya dilə gətirir: "Yanvarın 19-u tezdən evə gəldi. Çörək almışdı. Çörəyi verdi, yeməyə qalmadı. Dedi ki, Pakizə, vəziyyət çox pisdir. Döyüşə gedirəm. Qızını öpdü və getdi. Axşamçağı anam gəldi ki, uşaqları yığ, gedək bizə. Etibarın paltarını götürəndə tək səbir gəldi. Bu vaxt şəhid Abdullanın anasının səsini eşitdik. Bir azdan xəbər gəldi ki, Etibar şəhid olub. 19 yanvar 1990-cı il evimizə, elimizə bəla kimi gəldi".

Vətən üçün özünü sipər edən oğullarımız Vətən yolunda canlarını qurban verdilər. Böyük Zəfəri və qələbəni xalqımıza bəxş edən şəhidlər ölməzlər, onlar daim ürəklərdə, yaddaşlarda yaşayacaqlar.

**Turan MƏMMƏDLİ**

# Dövlət Proqramı çərçivəsində Gümüşlü, Qapıcıq və Parağaçay filiz yataqlarında qiymətləndirmə işləri həyata keçirilir

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bir sıra işlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikasında faydalı qazıntı yataqlarına beynəlxalq qiymətləndiricilər tərəfindən ilk dəfə olaraq rəy verilməsi və bu sahədə geoloji-kəşfiyyat işlərinin aparılması məqsədilə Türkiyə Respublikasının Maden Tetkik və Genel Arama Müdürlüğü (MTA) Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bağlanan müqaviləyə uyğun olaraq fərqli sahələr üzrə ixtisaslaşmış mütəxəssislər beynəlxalq qiymətləndirmə işləri ilə bağlı Naxçıvana ezam olunublar. Beynəlxalq qiymətləndirmə işləri Gümüşlü, Qapıcıq və Parağaçay filiz yataqlarında həyata keçirilir.

Qeyd edək ki, MTA-nın mütəxəssisləri Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin mütəxəssisləri ilə birlikdə qarşıda duran məsələlər, agentliyin laboratoriyasında Türkiyə Respublikasından gəlmiş laborantlarla geoloji sınaqların təhlil edilməsi, laborator analizlərin daha mötəbər aparılması istiqamətində işləri icra edirlər.

Mütəxəssislər tərəfindən kameral mərhələdə xəritələr üzərində müzakirələr aparıldıqdan sonra Gümüşlü yatağında ilkin çöl işlərinə başlanılıb. Çöl işlərinin ilkin mərhələsində qazılacaq buruq quyularının yeri müəyyənləşdiriləcək, xəritəalma işlərinin aparılmasına dair istiqamət müəyyən ediləcək.

Məlumat üçün bildirək ki, beynəlxalq və yerli təcrübələrdə filiz yataqları üzrə geoloji-kəşfiyyat işlərindən sonra beynəlxalq qiymətləndirici təşkilatlar tərəfindən ekspert rəyi alınır və bu rəy əsasında faydalı qazıntı yatağının ehtiyatları müvafiq



kateqoriyalarla kondisiyaların tələblərinə uyğun təsdiqlənir. Rəydə gələcəkdə daha mötəbər, müasir tələblərin dəyişməsi ilə əlaqədar dəqiq geoloji-kəşfiyyat işlərinin aparılması istiqamətində tövsiyələrin verilməsi, ehtiyatı iqtisadi cəhətdən səmərəli hesab edilən yataqlar üzrə istismara dair məsləhətlərin verilməsi məsələləri qeyd olunur.

Bu layihənin icrası Naxçıvan Muxtar Respublikasında dağ-mədən sənayesinin inkişafına, yeni iş yerlərinin yaradılmasına, nəticədə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına və rezervlərin artmasına töhfə verəcəkdir.

# "Səma mələyi"




## Naxçıvanda Milli Qəhrəman Hökumə Əliyeva haqqında ilk kitab çapdan çıxıb

Hər bir azərbaycanlının böyük sevgi və məhəbbətlə xatırladığı Hökumə Əliyeva haqqında işıq üzü görən "Səma mələyi" kitabını oxuduqda "Hörmətli sərnişinlər, kəmərlərinizi bağlayın. Hər şey yaxşı olacaq" sözlərini də həyəcanla yada salırıq. Eyni zamanda qürur yaşayırıq "Səma mələyi"ni vərəqləyəndə. Və Hökumə Əliyevanın ekipaj üzvləri ilə birlikdə öz vəzifəsini yerinə yetirdiyi zaman göstərdiyi mənəvi qəhrəmanlıq yadımıza igid Azərbaycan qadınlarını salır; deməli, onların yolunu davam etdirənlər var. Bunu ölkə Prezidenti cənab İlham Əliyev belə xarakterizə edir: ***"Mən onların fəaliyyətini, peşəkarlığını, fədakarlığını yüksək qiymətləndirirəm, pilotlar və bütün ekipaj üzvləri böyük qəhrəmanlıq göstərdilər".***

Adim Adıgözəlin müəllifi olduğu "Səma mələyi" bizi igid azərbaycanlı qızının həyat yoluna aparır. Təəssüf ki, bu yol çox qısadır. Təskinliyi onda tapırıq ki, qısa ömür yolunda bütün dünya onu tanıdı; tanıdı və sevdi. Bu gün isə ürəyində yaşadır.

İki yaşından doğulduğu Kəlbəcərdən məlum səbəblərdən uzaq düşərək köçkünlük həyatı yaşayan Hökumə Əliyevanın kiçik tərcümeyi-halı hər birimizdə onun gələcəkdə Azərbaycan üçün böyük işlərə imza atmağa qabil olan bir insan təəssüratı yaradır. Ancaq o, çox gənc ikən ən böyük qəhrəmanlığa imza atdı. Və bu qəhrəmanlıq kitabın səhifələrində özünə yer almış xatirələrdə, onun haqqında yazılmış şeirlərdə əks olunub.

Şeirlərin hər biri sanki Hökumə Əliyevanın xarakterini yaxından tanıyanlar tərəfindən qələmə alınıb:

*"Yaxşı olar" – ümid verdin hər kəsə,*
*Mələklər də heyran qaldı bu səsə,*
*Çoxlarına həyat verdin, sən isə*
*Qəhrəmantək həlak oldun, Hökumə.*

Mən isə düşünürəm ki, mələklərin də heyran qaldığı "yaxşı olar" ümidi ilə sərnişinlərə həyat verən Hökumə xanım qəhrəmantək həyatla vidalaşaraq xalqımızın qəlbinə köçdü. Səmada Ulu Tanrıya yaxın olan bu cəsur azərbaycanlı qızı ömürlük qəhrəmanlıq dastanı yazaraq dünyaya bir haray saldı. Bu harayı bütün dünya eşitdi. Bir iş yoldaşı Hökumə haqqında xatirəsini bir cümlə ilə ifadə edir: "O qədər səssiz qız idi, indi gör necə səs saldı, getdi".

Hökumə Əliyeva haqqında qələmə alınmış "Səma mələyi" hələlik ilk qaranquş təsiri bağışlayır. Bundan sonra qəhrəmanımız haqqında daha böyük əsərlərin – nəsr, nəzm və publisist əsərlərin yazılacağına, musiqilərin bəstələnəcəyinə, rəsm əsərlərinin çəkiləcəyinə inanırıq.

**Muxtar MƏMMƏDOV**



# "Rehabus": xoşbəxt gələcək üçün

Fiziki imkanları məhdud şəxslərə ölkəmizdə hər zaman diqqət və qayğı göstərilir, onların qarşılaşdıqları problemlərin aradan qaldırılmasına dövlət səviyyəsində nəzarət edilir.

Yaxın günlərdə Naxçıvanda fiziki məhdudiyyətli şəxslərin reabilitasiya müəssisələrinə asan, rahat şəkildə çatması üçün onlar reabilitasiya avtobusu ilə təmin edilib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin "Rehabus" layihəsi Babək rayonu üzrə bərpa mərkəzlərinə gələn müvafiq kateqoriyadan olan şəxslərin reabilitasiya müddətləri başa çatdığı üçün hazırda Kəngərli rayonundan olan müvafiq şəxslərə xidmətlər göstərir, rayonun kəndlərindən əvvəlcədən müəyyən edilən ünvanlardan əlilliyi olan şəxsləri götürərək Naxçıvan şəhərində yerləşən Uşaq Bərpa və Əlillərin Bərpa mərkəzlərinə çatdırır. Biz də fiziki imkanları məhdud uşaqlarla görüşmək üçün Kəngərli rayonunun Qabıllı kəndində olduq. Müvafiq kateqoriyadan olan şəxslərin valideynləri ilə görüşüb fikirlərini öyrəndik. Uşaqlardan biri – Vəfa Hüseynovanın valideyni Maisə Hüseynova dedi: "Qızım anadangəlmə serebral iflic olduğundan artıq 6 ildir ki, reabilitasiya üçün Naxçıvan şəhərinə üz tuturuq. Bu layihə nəticəsində övladlarımız reabilitasiyalarına daha asan və vaxtında gedə bilirlər. Bu da məhdud fiziki imkanlıların valideynləri ilə yanaşı, həm də cəmiyyət tərəfindən təqdir olunur. Layihə nəticəsində artıq övladlarımız rahatlıqla ünvana çatdırılır".

Bu marşrutdan istifadə edərək övladını reabilitasiya mərkəzinə aparan Qıvraq qəsəbə sakini Naibə Həsənova deyir ki, ilk dəfədir, bu marşrutla gedir: "Özümüz gələndə həm uzaq yol, həm də avtomobil problemi ilə qarşılaşırdıq. Bu layihəni eşidən zaman çox sevindik. Avtobusda bizim üçün hər cür şərait vardır. Bizə belə diqqət və qayğı göstərən dövlətimizə minnətdarlığımızı bildiririk".

Qeyd edək ki, reabilitasiya proseduru bitdikdən sonra isə onlar yenidən gəldikləri ünvanlarına qaytarılır. Bu proses muxtar respublikanın bütün bölgələrində həyata keçiriləcək.

**Bülbül QULİYEVA**










# O baxışların dərinliyində bir həsrət var...


Adilə Əlipənahova


Rövşən Əlipənahov


Zakir Əlipənahov


Firəngiz Babayeva

Qadınları, adətən, sarışın, qızılısaçlı, kişiləri ucaboy, qamətlidirlər. Gözləri mavidir, bəzisində yaşıl, bəzisində sezə bilməyəcəyimiz qəribə rəng çalarları var. Bu çalarlara görə yerli əhalidən görünüşləri ilə fərqlənirlər. Baxışları gözəldir, amma o baxışların dərinliyində bir həsrət var – yurd həsrəti.

Qərbi azərbaycanlıların yurd nisgilinin tarixi 30-35 ildən daha öncəyə dayanır. Mənfur ermənilərin planlı şəkildə bu torpaqlara köçürülməsi, 1918-ci ildə Azərbaycanın qədim tarixi şəhəri İrəvanın, 1920-ci ildə Zəngəzur mahalının Ermənistana verilməsi ilə başlanan hadisələr soyqırımı, deportasiya kimi faciələrin kütləvi hal almasına zəmin yaratdı.

***O Gömürdən bu Gömürə...***

Bura Gömürdür. Şahbuz rayonunun ucqar dağ və sərhəd kəndi olan, qərbi azərbaycanlıların kompakt şəkildə yaşadığı Gömür. Dərələyəz mahalının Gömüründən pənah gətirən gömürlülər. Kənddə Dərələyəzin Axta və Gabudundan gəlib məskunlaşanlar da az deyil. Zəhmətə qatlaşan insanların əsas məşğuliyyəti maldarlıqdır. Dan yeri sökülən kimi iş başına keçən gömürlülər təbiətin bu yerlərə ərməğan etdiyi səxavət payından faydalanır, ailələrini dolandırmaq üçün bol məhsul əldə edirlər. Dağlarla dövrələnmiş, qış fəslinin vurduğu qar nəqşləri ilə bəyazlanmış kəndin saf havasını udur, dupduru bulaqların gözündən su içirlər. Zira gözyaşı kimi dupduru bulaq suları da onların ürəyini sərinlətmir. Yurd nisgilini bu gözəl mənzərələr ovutmur.

Onlardan biri – Rövşən Əlipənahovla həmsöhbətik. Deyir ki, biz 10 ailə olaraq 1970-ci ildən burada məskunlaşmışıq. Həmin dövrdəki köç, əslində, "səssiz" deportasiya idi. Bizim kimi neçə-neçə ailə öz yurdunu tərk etmək məcburiyyətində qaldı. Bizdən sonra baş verən hadisələr isə hər kəsə məlumdur: "Dərələyəzdə erməni olmayıb. Onlar bu yerlərə sonradan köçürülüb. Azərbaycanlıların qonaqpərvərliyindən, humanistliyindən istifadə edərək düşdükləri yerə mənimdir deyib, sahibləniblər. Azərbaycanın, demək olar ki, bütün bölgələrinə qarayara kimi səpələnmişdilər. Amma elə qələmə verirdilər ki, sanki bu torpaqların, bu dağların, daşları elə bunlar yaradıblar".

Bəs tarixi faktlar, əslində, nəyi göstərir? Qazıntılar zamanı azərbaycanlıların kütləvi soyqırımına məruz qaldıqları qəbiristanlıqlar aşkarlanıb. Torpaq belə bu haqsızlıqları öz qoynunda gizlətmir. Amma mənfur erməni əsl həqiqəti özü bilsə də, heç cür anlamaq istəmir ki, o torpaqlara Azərbaycançılıq möhürü vurulub. Heç bir saxta sənəd, xəritə o torpaqlardan dərinliyə kök atmış bu tarixi silə bilməz: o torpaqlarda ata-babalarımızın ruhu dolaşır. O torpaqlar əsrlərdən süzülüb gələn ana-nənələrin laylasını, şirin-şəkər balaların gülüşünü, babaların öyüdünü, torpaq sevgisini, oğulların at belində yarışını, elin ən gözəl toybayram adətlərinin sədasını canına hopdurub, xəzinə kimi qoruyur.

İnsanları öz elindən silah gücünə didərgin sala bilərsən, amma onun yaddaşını, genofondunu məhv edə bilməzsən. O xatırlayacaq, o danışacaq, o yazacaq, gələcək nəsillərə ötürəcək, əsla və əsla öz əslindən, torpağından vaz keçməyəcəkdir. Rövşən Əlipənahov da Qərbi Azərbaycan folklorunu toplayır, səbirlə dünyagörmüş ağsaqqalları, ağbirçək nənələri dinləyir, onların dilindən eşitdiklərini dəftərə köçürür itib-batmasın deyə.

***"Ömrümə ömür calanar..."***

Fatma xanım 17 yaşında Dərələyəzin Gömüründən gəlib. 54 ildir ki, Gömürdə məskunlaşıb. Amma bu 54 il 17 ildə yaşadıqlarını, ruhuna, beyninə həkk etdirdiklərini unutdura bilməyib. Gəzdiyi dağları, yığdığı bitkiləri xatırlayır. Dərələyəz mətbəxində hazırlanan yeməkləri də unutmayıb, indi şövqlə onlardan bizə də danışır.

Adilə Əlipənahova isə 1988-ci ildə ailə üzvləri ilə birgə öz elobasından didərgin düşüblər. May ayında gecə ilə Kükü tərəfdən Naxçıvana keçmiş və Gömürdə məskunlaşmışlar. Deyir ki, Şahbuzun Gömürü də bizim üçün doğmalaşıb. Di gəl ki, ürəyimiz orada qalıb – dağların o üzündə. Üstündən illər keçib. Müsahibim deyir ki, o yerləri, evimizi, o dağı, daşı gözübağlı əllərimlə taparam. Ahıl çağımda gedib torpağımı görsəm, elə bilirəm, ömrümə ömür calanar.

Əli Haqverdiyev ustadır. Gömürdə tikilən yeni evlərdə onun da əməyi var. Qurur, yaradır, amma viran qalmış yurdu üçün nigarandır. Valideynlərini uşaq ikən itirib. Bir tərəfdən də yurd itkisi ağır dərd olub ona. Doğmalarının ruhu dolaşan o torpaqlara qayıtmaq, yarımçıq qalan uşaqlıq, gənclik xəyallarını yenidən yaşamaq istəyir.

Zakir Əlipənahov sürücüdür. Hər gün Gömürdən Naxçıvan şəhərinə, eləcə də şəhərdən Gömürə sərnişinləri daşıyır. Doğma yurdunun hər cığırı, hər dağı, hər dərəsi yadındadır: "Yuxumda da ancaq o Gömürü görürəm", – deyir. Bu, insanın doğulduğu torpaqla ruhi bağlılığıdır, onu bir ömürboyu tərk etməyən pak sevgisidir torpağa. "Qismət olar Şahbuzun Gömüründən Dərələyəzin Gömürünə daşıyaram sərnişinləri öz yurd-yuvalarına", – deyir Zakir kişi.

Cəbrayıl kişi kəndin yaşlı sakinlərindəndir. O deyir: "Axırıncı dəfə keçən ilin may ayında gedib Qanlıgölün üstündən yurd yerlərimizə boylandıq, kövrəldik, o torpaqlara qayıdacağımız günü həsrətlə gözləyirik. Biz torpaqlarımızı qorumaq üçün sonuna qədər dayandıq. Amma əliyalın idik".

***Yurd yerləri o zaman dirçələcək ki...***

24 dekabr 2022-ci il tarixdə Prezident cənab İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasına gəlişi və buradakı çıxışı zamanı verdiyi tapşırıq əsasında hazırlanmış Qərbi Azərbaycana Qayıdış Konsepsiyası addım-addım həyata keçirilməkdədir. Bu, ilk növbədə, tarixi ədalətin bərpası, ata-baba yurdlarından qovulmuş qaçqın soydaşlarımızın öz doğma ocaqlarına qayıdıb yaşamaq kimi təməl hüquqlarının təmin olunmasına xidmət edir. Gömürlülər də yurd nisgilinin bitəcəyinə, əzəli ata-baba torpaqlarına qovuşacaqlarına əmindirlər. Daha Kükünün Qanlıgölündən Vətənə həsrətlə baxmağa gərək qalmayacaq. Torpağın da nisgili başa çatacaq. İllərlə sinəsində gizləyərək sədaqətlə qoruduğu xəzinənin açarlarını gerçək sahiblərinə təhvil verəcək. Əli usta yeni evlər tikəcək, Cəbrayıl kişi qurumuş bağlara yenidən can verəcək, Firəngiz xanım dağların sinəsindən dərdə dava bitkiləri toplayacaq, Adilə xanımın yeməklərinin ətri aləmi bürüyəcəkdir. Kərəm kişi qol qaldırıb oynayacaq, Firuzə nənə bir daha ağlamayacaq... Bax o zaman viran qalmış yurd yerləri dirçələcək. Qarabağ dirçəldiyi kimi...

Ruhiyyə RƏSULOVA









## Naxçıvan Qızlar Liseyindən beynəlxalq uğur

### *Nuray Cabbarlı FLEX proqramı üzrə ABŞ-də təhsil alacaq*

Naxçıvan Qızlar Liseyinin XI sinif şagirdi Nuray Cabbarlı 22 ölkədən müraciət edən 35.000 namizəd arasından seçilib, 1000 finalist arasında yer alaraq beynəlxalq FLEX proqramına qəbul edilib. Bu uğur onun şəxsi istedadını və zəhmətini, eləcə də təhsil sistemimizin beynəlxalq arenada mövqeyini bir daha təsdiq edir.



FLEX proqramı çərçivəsində tələbələr ABŞ-dəki orta məktəblərdə bir il ərzində təhsil alaraq, akademik biliklərini artırmaqla yanaşı, mədəniyyətlərarası təcrübələr və müxtəlif sosial fəaliyyətlər də iştirak edərək qlobal baxışa sahib olurlar. Bu təcrübə tələbələrə gələcəkdə ABŞ universitetlərinə müraciət etməkdə və karyeralarını inkişaf etdirməkdə böyük üstünlük verir.

Nuray deyir: "Mənim üçün FLEX proqramı böyük fürsətdir. ABŞ-də 1 il təhsil almaq, yalnız akademik biliklərimi artırmaqla kifayətlənməyib, eyni zamanda fərqli mədəniyyətləri yaxından tanımaq və beynəlxalq mühitdə özümü sınamaq imkanı verir. Naxçıvan Qızlar Liseyində aldığım yüksək səviyyəli təhsil və dəstək mənə bu nailiyyəti əldə etməkdə böyük kömək oldu. Ümid edirəm ki, bu təcrübə gələcək karyeram üçün güclü bir təməl yaradacaq və digər gənclərə də öz potensialını reallaşdırmaq üçün ilham verəcək".

Biz də Nuray Cabbarlını təbrik edir, ona təhsil həyatında uğurlar arzulayırıq.

Aygün RÜSTƏMOVA

## 25 qızıl medallı şagird



Ölkəmizin qabaqcıl ali məktəblərindən biri olan Naxçıvan Dövlət Universiteti son illər qazandığı uğurlarla seçilir. Bu günlərdə eşitdiyimiz daha bir şad xəbər də hamımızı sevindirdi. Belə ki, universitetin nəzdində fəaliyyət göstərən İngilis dili Təmayüllü Gimnaziyanın VI sinfində oxuyan Qismət Talıbov az yaşında böyük uğurlara imza atıb. Bu gün o, 25 qızıl medalın sahibidir. Onunla təhsil aldığı məktəbdə görüşüb həmsöhbət olduq. Qismət deyir ki, o ilk qızıl medalı 2-ci sinifdə oxuyarkən qazanıb. Bu uğurda riyaziyyat müəllimi olan anasının və ona dərs deyən müəllimlərin əməyini yüksək dəyərləndirir. Ötən il gimnaziyaya daxil olduğunu deyən Qismət burada oxuyanlar üçün böyük imkanların yaradıldığını bildirdi. Deyir ki, aldığı medalların bir çoxunu riyaziyyat-məntiq olimpiadalarından qazanıb. Bəzilərinə isə ingilis dili olimpiadasında layiq görülüb. O artıq Amerika Birləşmiş Ştatlarına, İtaliyaya, Sinqapura da dəvət alıb. Riyaziyyat fənni üzrə Nyu-Yorka və Sinqapura dəvət aldığı üçün bu yay həmin olimpiadalara getməyi planlaşdırır.

Biz də Qismətə bu böyük yarışlarda uğurlar arzulayırıq.

Aidə İBRAHİMOVA

## Azərbaycanlı alimin beynəlxalq uğuru

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix elmləri doktoru Sevinc Abbasovanın yeni monoqrafiyası "İlham Əliyev: Qadınlara istiqamətli qlobal təşəbbüslər və gender bərabərliyinin inkişafı (2003-2023)" Almaniyanın nüfuzlu "Stella Verlag" nəşriyyatında çap olunub.

Bu monoqrafiyanın beynəlxalq akademik məkanda işıq üzü görməsi Azərbaycan elminin qlobal miqyasda tanınması, ölkəmizin gender siyasətinə dair tədqiqatlarının beynəlxalq ictimaiyyətə təqdim edilməsi və Azərbaycan alimlərinin dünya elmi ictimaiyyətində öz yerini möhkəmləndirməsi baxımından mühüm bir hadisədir.

Müasir dövrümüzdə qadın hüquqları və gender bərabərliyi yalnız ölkədaxili siyasətin deyil, eyni zamanda qlobal gündəmin əsas məsələlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qadın siyasəti və gender bərabərliyinə yönəlik qlobal təşəbbüslər, beynəlxalq əməkdaşlıq və milli inkişaf proqramları Sevinc Abbasovanın bu fundamental tədqiqatında sistemli şəkildə təhlil edilir.

Bu kitab Azərbaycan dövlətinin gender siyasəti istiqamətində son 20 ildə həyata keçirdiyi mühüm islahatları, qadın hüquqlarının qorunması üçün qəbul edilən qanunvericilik bazasını və beynəlxalq səviyyədə atılan addımları akademik əsaslarla dünya elmi ictimaiyyətinə təqdim edir.

Bu fundamental tədqiqat Azərbaycan dövlətinin gender siyasətini, onun beynəlxalq səviyyədəki təsirini və bu sahədə əldə olunan nailiyyətləri elmi şəkildə dəyərləndirir.

Kitabda 2003-2023-cü illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə qadın hüquqları sahəsində həyata keçirilən islahatlar, qlobal arenada cənab İlham Əliyevin qadın hüquqları sahəsində təşəbbüsləri, Azərbaycanın beynəlxalq təşkilatlarla gender siyasəti sahəsində əməkdaşlığı, Azərbaycan qadınlarının beynəlxalq




tədbirlərdə, forumlarda və siyasi qərarvermə proseslərində iştirakının genişləndirilməsi, beynəlxalq platformalarda Azərbaycanın gender siyasətinin nümunəvi modeli, Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qadın hüquqlarına töhfələri, fondun qadınların sosial, iqtisadi və mədəni inkişafına verdiyi dəstək, Mehriban xanım Əliyevanın rəhbərliyi altında gender bərabərliyi ilə bağlı həyata keçirilən sosial layihələr geniş şəkildə araşdırılıb.

Bu monoqrafiya yalnız yerli kontekstdə deyil, həm də beynəlxalq standartlarla müqayisəli şəkildə Azərbaycan dövlətinin gender siyasətini dəyərləndirir.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın gender siyasətinin beynəlxalq səviyyədə tanıdılması, dövlətin bu sahədə atdığı strateji addımların dünya elmi ictimaiyyətinə çatdırılması baxımından Sevinc Abbasovanın tədqiqatı mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın gender siyasəti təkcə ölkədaxili proseslərə deyil, beynəlxalq əməkdaşlığa da ciddi təsir göstərir. Ölkəmiz BMT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla sıx əməkdaşlıq edərək qadın hüquqlarının qorunması, gender bərabərliyinin inkişafı və qadınların liderlik imkanlarının artırılması istiqamətində mühüm işlər görmüşdür.

Sevinc Abbasovanın bu monoqrafiyası, məhz Azərbaycanın gender siyasətinin uğurlarını və gələcək perspektivlərini dünya akademik ictimaiyyətinə elmi əsaslarla təqdim edən mühüm bir mənbədir.

Azərbaycan qadınları tarixən cəmiyyətin inkişafında mühüm rol oynayıblar. Mədəniyyət, elm, təhsil, tibb və siyasət sahələrində fəal iştirak edən qadınlarımız dövlətin dəstəyi ilə daha geniş imkanlara sahib olublar.

Bu monoqrafiya Azərbaycanda qadın hüquqları sahəsində aparılan islahatların elmi əsaslarını təhlil edərək ölkənin gender siyasətində əldə etdiyi uğurların akademik səviyyədə tanınmasını təmin edir.

Azərbaycan dövləti gender siyasətini inkişaf etdirmək üçün sistemli və strateji yanaşma tətbiq etmiş, bu sahədə qəbul edilən qanunvericilik aktları və proqramlar qadınların cəmiyyətin bütün sahələrində daha fəal iştirakına imkan yaratmışdır.

Sevinc Abbasovanın kitabı bu siyasətin uğurlarını elmi əsaslarla təqdim edən, gələcək tədqiqatlar üçün dəyərli bir mənbə kimi çıxış edən fundamental əsərdir.

Bu kitab həm alimlərimiz, həm də Azərbaycan dövlətinin gender siyasətini öyrənmək istəyən beynəlxalq tədqiqatçılar üçün misilsiz elmi mənbə olacaqdır.

Azərbaycan elminin və alimlərinin beynəlxalq səviyyədə tanınması yolunda Sevinc Abbasovanın bu uğuru qlobal elmi mühitdə ölkəmizin yerini daha da möhkəmləndirəcəkdir.

**Xəzər HÜSEYNOV**
***tarix elmləri doktoru, professor***

## Hesablama Palatası ilə Naxçıvan Dövlət Universiteti arasında memorandum imzalanıb

Azərbaycan Respublikasının Hesablama Palatası ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memoranduma əsasən elmi-praktiki əlaqələrin inkişaf etdirilməsi, ixtisaslı kadr hazırlığının təmin olunması, qarşılıqlı maraqdoğuran sahələrdə mövcud təcrübənin bölüşülməsi və sair istiqamətlərdə fəaliyyətlər nəzərdə tutulub.

Sonra Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşüb. Görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, həmçinin universitetin və Hesablama Palatasının əməkdaşları iştirak ediblər.

Vüqar Gülməmmədov dövlət maliyyəsinin idarəedilməsi, ona nəzarətin nəzəri və praktiki aspektlərinə toxunub. Eyni zamanda sədr Hesablama Palatasının strateji idarəetmə çərçivəsinə diqqət yetirib, müxtəlif ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində bir sıra proqramların həyata keçirildiyini qeyd edib.

Sədr bu çərçivədə Naxçıvan Dövlət Universiteti ilə birgə fəaliyyətin nəzərdə tutulduğunu da vurğulayıb. O, "Dövlət sektorunda audit" təlim layihəsi üzrə praktiki təlimlərin əhəmiyyətindən, ixtisaslı kadrların hazırlanmasının önəmindən bəhs edib.

Vüqar Gülməmmədov qeyd edib ki, gələcəkdə universitet ilə



əməkdaşlıq təkcə təlim proqramı ilə məhdudlaşmayacaq, həm də tələbələrin Hesablama Palatasında təcrübə keçməsi, karyera inkişafı üçün təlimlərə cəlb edilməsi, birgə tədqiqat işlərinin aparılması, universitet tələbələrinin sahə üzrə ən yaxşı məqalələrinin "Dövlət auditi" jurnalında nəşr olunması, müvafiq fənlər üzrə tədris proqramlarının müəyyənləşdirilməsinə dəstəyin verilməsi nəzərdə tutulur.

Görüş çərçivəsində Hesablama Palatasının əməkdaşları qurumun fəaliyyəti ilə bağlı geniş təqdimatlarla çıxışlar ediblər.

Daha sonra tələbələrlə dövlət maliyyə nəzarətinin əhəmiyyəti barədə fikir mübadiləsi aparıb, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, "Dövlət sektorunda audit" layihəsi çərçivəsində yüksək fəallıq və nəticə göstərmiş tələbələrə xüsusi sertifikatların verilməsi, həmçinin Hesablama Palatasının müvafiq struktur bölmələrində fəaliyyətə cəlb olunmaları planlaşdırılır.

## Ümumi təhsil müəssisələrindəki STEAM otaqlarına yeni avadanlıqlar verilib

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinə uyğun olaraq muxtar respublikanın ümumi təhsil müəssisələrində 50 yeni STEAM otağının yaradılması, 154 təhsil müəssisəsində isə mövcud olan STEAM otaqlarının avadanlıqlarla zənginləşdirilməsi nəzərdə tutulmur.

Dövlət Proqramının icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən tender yolu ilə alınan avadanlıqların təhsil



müəssisələrinə təhvil verilməsinə başlanılıb. İlk olaraq 154 təhsil müəssisəsindəki STEAM otaqlarının zənginləşdirilməsi üçün arduino, arduino superkid, flament, 3D qələmlər, arduino nano, məsafə sensorları, optik sensorlar, Günəş paneli, servo motor və digər avadanlıqlar təhsil müəssisələrinə təhvil verilib.

Ümumi təhsil müəssisələrinə yeni verilən bu avadanlıqlar təhsil müəssisələrində STEAM təhsili üzrə şagirdlərin əyani vasitələrdən istifadə edərək öz bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayacaq.

Qeyd edək ki, yaxın günlərdə ümumi təhsil müəssisələrində 50 yeni STEAM otağının yaradılmasına da başlanılacaq. Məlumat üçün bildirək ki, ümumi təhsil müəssisələrində STEAM dərsləri cari tədris ilindən IV-IX sinif şagirdləri üçün tədris olunur.

## Uşaqlara sevgi, dünyaya nur





*Naxçıvan şəhərində 12, rayonlarda isə 8 bağça olmaqla, ümumilikdə, muxtar respublikada 20 bağça fəaliyyət göstərir. Bu bağçalar uşaqların hərtərəfli inkişafı üçün nəzərdə tutulmuş müasir mərkəzlərdir. Burada uşaqların təlim-tərbiyəsi üçün hər şey nəzərdə tutulub: oyun zalları, yataq otaqları və açıq hava meydançaları. Bağçalar uşaqların həm sağlam, həm də intellektual inkişafına xidmət edir.*

*Naxçıvan şəhərindəki 1 saylı uşaq bağçasının fidanları bu dəfə "Şərq qapısı" üçün gülümsədilər.*















# Şəhərimizin gecə sakinləri



“Gecə yuxusu şirin olur”, – deyirlər, onlar üçün gecənin Ayı gündüzün Günəşi kimidir. Onlar şəhərimizin gecə sakinləridir. Əqrəblər gecə 12-ni göstərdikdə həyatın seyri onlar üçün dəyişir. Tanrının bəxş etdiyi rahatlığı bir kənara qoyub ruhən özləri ilə danışa-danışa işlərinə yollanırlar. Yollarda onlardan başqa heç kim olmur, ara-sıra avtomobillərin şəhərdəki səssizliyi pozması belə onların iç səslərində danışıqlarını dəyişmir. Qışın oğlan çağında gecənin səssiz əsən küləyi tozdumanı ərşə qaldırır, şəhərin sükutunun sanki pozulmasını istərmiş kimi onları sınağa çəkir, ancaq səbirləri onları işlərindən etmir: yenə həmişəki kimi, Ayı Günəşə təhvil verəcəklər kimi işlərinə davam edirlər...

Sükuta qərq olmuş gecədə oyaq qalmaq istədik: onların bu həyata necə alışdıqlarına şahidlik etmək üçün. Binanın kiçik pəncərəsindən yalnız başlarında olan qara papaq görünürdü, yaxınlaşdıq. Təəccübləri gözlərindən oxunurdu, sanki gecənin sükutunu biz pozmuşuq kimi baxırdılar. Böyük otaqda işə hazırlaşırdılar, əyinlərində olan qalın gödəkcələr bu gecənin də soyuq olacağından xəbər verirdi. Salamlaşırıq, onlarla birlikdə gecə görəcəkləri işləri lentə alacağımızı deyirik. Bəzilərinin üzündən narahatlıq sezilir, sanki görünmələrini istəmirlər. Onlara “Bu şəhərin görünməz qəhrəmanları elə sizlərsiniz”, – deyirik, ara-bir qədər yumşalır. Paltarlarını geyinib, təmizlik ləvazimatlarını götürüb yavaş-yavaş binanı tərk edirlər. Hər kəs harada işləyəcəyini artıq bilir. “Hansı məhəllənin, hansı küçənin daha təmiz olduğunu bilirik”, – deyirlər. Sanki insanlardan şikayətlənirlər, onların təmizliyi qorumamasını hayqıraraq demək istəyirlər, hər gün eyni yerdə kimlərin bu şəhərə “düşmən” kəsildiyini bildiklərini bürüzə verməyi arzulayırlar. Susurlar, nə qədər gündüzlər çirkləndirilsə də, bu şəhər, Ayın qürub çağında yerini Günəşə verdiyi anda onlar həmin yerləri təmiz edirlər.

...Araba səsləri sükutu bir qədər pozur. Fürsətdən istifadə edib söhbətləşməyə başlayırıq. Deyirlər, bu şəhər bizə ata-babalarımızın yadigarıdır, onu təmiz saxlamaq hər birimizin borcudur: “Bəzən bizə fərqli yöndə yanaşırlar, bu, əvvəllər bir az insana təsir edirdi. Axı bizim işimiz bu şəhərin təmizliyini qorumaqdır. Sonradan insan alışır, bəzən gözümüzün içinə baxa-baxa yeri zibilləyən insanlar olur. Buna heç vaxt sərt reaksiya vermirik, gülərək işimizi görürük, təmizləyirik. Bəlkə, ibrət ola...”

Vaqif Vəliyev uzun illərdir, Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsində çalışır. Deyir, qazancı buradandır, hər gecə şəhərin təmizliyi üçün ayrılmış əraziyə yollanır: “İlin bu aylarında havalar çox sərt keçir, hələ gecələr şaxta olur. Buna baxmayaraq, işimizi heç vaxt axsatmamışıq. Çalışdığım idarə tərəfindən payız-qış geyimləri ilə təmin olunmuşuq. İş saatlarımızda hər birimiz şəhərimizin təmizliyi üçün çalışırıq”.

“Gecə yuxusuzluğu ilə yanaşı, bu həm də zəhmət tələb edən peşədir”, – deyir Hüseyn Rəhimov: “Bir çoxları bundan utansa da, mən burada utanılası bir şeyin olduğunu düşünmürəm. Bir neçə ildir, bu idarədə çalışıram, qarlı-yağışlı, küləkli havanın olmasına baxmayaraq, hər kəs işinin öhdəsindən gəlib. Bəzən niyə bu işdə çalışdığımızı deyənlər olur, bizim işimiz şəhərimizin təmizliyini qorumaqdır, hər bir vətəndaş bunu edərsə, yəqin ki, bizim təmizləməyimizə də ehtiyac qalmaz (gülür)”.



Təmizlik işçiləri ilə həmsöhbət olarkən bizi narahat edən bir mənzərə ilə qarşılaşırıq: sanki insanlar küçələri bilərəkdən zibilləyir, tullantıları qablara yox, yerə atırlar. Bu anda yaranan mənzərə şəhəri çirkləndirməklə yanaşı, həm də təmizlik işçilərinin işini artırır. Elə onların da ən çox gileyləndiyi nüans budur: “Bu şəhəri sevirik, hamımızın yurdudur, elimizdir. Uzaqda olarkən bəzən naxçıvanlı birini görürük, az qalırıq boynuna sarılaq, Naxçıvanımız üçün darıxdığımıza görə. Buranı seviriksə, təmiz saxlamalıyıq, çirkləndirməməliyik. Gördüyünüz bu zəhmətkeş insanlar (əli ilə təmizlik işçilərini göstərir) bəzən əziyyətlərinin hədər getdiyindən heyifsilənirlər. Buna baxmayaraq, iş yoldaşlarımız canla-başla çalışır”.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin nəzdində olan Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsinin işçiləri günün 24 saatı 3 növbədə çalışırlar. Günün istənilən saatında “narıncı” paltarlı insanları şəhərdə görmək mümkündür. İdarənin 2 avtomobili isə dayanmadan şəhərdə toplanan tullantıları müəyyən olunmuş əraziyə daşıyır.

Havanın işıqlanmasına az qalır, hər kəs işini bitirib və gecənin qaranlığında topladıqları məkana üz tuturlar. Çoxlarının gözündə yorğunluq hiss edilir, lakin gördükləri işdən sanki qürurlanırmış kimi deyib-gülürlər. Sabahı ürəklərində olan arzularla, ümidlərlə açırlar, hər gecənin bir sabahı var. Paltarlarını dəyişib, evlərinə yollanırlar – gündüzü olan gecənin yuxusunu almaq üçün...

Naxçıvanın bu qədər təmiz olmasının əsl səbəbkarlarıdır onlar, gecənin Ayında, gündüzün Günəşində yorulmadan fəaliyyətlərini davam etdirirlər. Hər səhər Günəşi doğduqda, hər gecə Ayın işıqlandırdığı şəhərdə əllərində araba küçələri süpürən bu insanların bir məqsədi var: təmiz şəhəri görmək. Onlar oyaq olarkən biz gecələri yatırıq, bizim təmiz şəhəri görməyimiz onların oyaq olmasının əsəridir. Bəs biz bu işdə onlara niyə kömək etmirik? Niyə tullantıları zibil qutularına yox, hara gəldi atırıq? Bəzən təmiz arzularımızı elə özümüz çirkləndiririk, təmizləyənlər isə məhz şəhərimizin gecə sakinləri olur...

✍ **Ceyhun MƏMMƏDOV**



## Naxçıvan şəhərinə və muxtar respublikanın bölgələrinə qar yağıb

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya Mərkəzindən “Şərq qapısı”na verilən məlumata əsasən fevralın 21-i Naxçıvan şəhərinə, Ordubad rayonunun Parağaçay, Nürgüt, Şahbuz rayonunun Kükü, Biçənək, Şərur rayonunun Axura, Culfa rayonunun Ərəfsə, Göydərə istiqamətlərinə və digər yüksək dağlıq ərazilərə qar yağıb.

Qarın hündürlüyü Naxçıvan şəhərində 10, Ordubad şəhərində 5, Parağaçayda 13, Nürgütdə 12, Culfa şəhərində 3, Göydərədə 14, Ərəfsədə 11, Şahbuz şəhərində 8, Biçənəkdə 11, Küküdə 22, Şərur şəhərində 7, Axurada 11, Kəngərli rayonunda 8, Sədərək rayonunda isə 8 santimetr olub.

Qeyd edək ki, muxtar respublikada qarlı hava şəraiti fevralın 23-nə kimi davam edəcək.

**Naxçıvan florası**



***Qədim Naxçıvanın təbiətini fərqləndirən əsas xüsusiyyətlərdən biri onun rəngarəngliyidir. Muxtar respublikanın ərazisi zəngin bitki örtüyünə malikdir.***

***Bu yurd yeri həm də müalicəvi dərman bitkiləri ilə də zəngindir. Bütün bunları nəzərə alaraq “Şərq qapısı” qəzetində “Naxçıvan florası” adlı rubrikanı sizə təqdim edirik.***

## Sarıçiçək boymadərən

Sarıçiçək boymadərən çoxillik, sürünən kökümsovlu bitkidir. Hündürlüyü 15-70 santimetrdir. Gövdəsi dikduran, aşağı gövdə yarpaqları saplaqlı, yuxarı gövdə yarpaqları isə saplaqsızdır. Sarırəngli çiçəkləri mürəkkəb çətir çiçək qrupuna toplanmışdır.

Naxçıvan Muxtar Respublikasının dağlıq hissələrində yayılmışdır. Nəmlik sevən bitkidir. Orta və yuxarı dağlıq ərazinin subalp qurşaqlarındakı meşələrdə, meşə talalarında və meşə ətrafında, kolluqlarda, subalp çəmənlərində, çaykənarı daşlıqlarda rast gəlinir. Alaq otu kimi əkinlərdə, dincə qoyulmuş sahələrdə, yolların kənarlarında bitir.

Sarıçiçək boymadərən həyatının birinci ilində kök sistemini inkişaf etdirir. İkinci ilində isə çiçəkləməyə başlayır. Toxumla çoxalmadan əlavə vegetativ yolla – kökümsovla da çoxalır. Kökümsovu torpaq səthinə yaxın yerləşir və özündən yeni zoğlar verir. Bir bitki 25 minə qədər toxum verə bilir. Sarıçiçək boymadərən az-çox nəmlik sevən bitki olduğu üçün, əsasən, çəmənlərin və meşələrin ot örtüyündə də rast gəlinir. Otlaq və biçənəklərin tərkibində, demək olar ki, geniş yayılmış bitkilərdəndir.

Sarıçiçək boymadərənin tərkibində efirli birləşmələr, xüsusən də azulen, sineol, limonen, borneol, xamazulen daha çoxdur. Bunların sayəsində bitki bakterisid və iltihab əleyhinə təsir göstərir.

Sarıçiçək boymadərənin tərkibindəki acı maddələr dəridə parazitlik edən mikroorqanizmlərə qarşı öldürücü təsir göstərir. 50 qram boymadərən 500 ml suda dəmlənir və ılıq şəkildə təmizflə bütün bədənə sürtülür. Yaxud 200 qram bitki 3 litr suda dəmlənir, 20 dəqiqə vanna qəbul edilir. Belə prosedur dəridə olan parazitləri məhv edir, dərini təravətləndirir və pis qoxuları aradan qaldırır.

Bitki dəridə olan dərialtı gənələrə öldürücü təsir göstərir. Ondan hazırlanmış dəmləmə yaraların müalicəsində çox effektlidir. Bitkinin dəmləməsi böyük qan dövranı pozulmalarında da faydalıdır, əl və ayaqlarda olan soyuqluğu və üşüməni aradan qaldırır. Ürəkbulanma, burun qanamaları, konyuktivitdə istifadə olunur.

Qida borusu iltihabında, qastrit, kolit, qeyri-spesifik bağırsaq xorası kimi xəstəliklərdə boymadərən çayının qəbulu iltihab əleyhinə vasitə kimi əla nəticələr verir. Qeyri-spesifik bağırsaq xoralarında boymadərən, gülümbahar, quşəppəyi bitkilərinin qarışığından hazırlanmış çay daha yaxşı nəticə verir.

Sarıçiçək boymadərəndən alınan ekstrakt daha faydalıdır. Yeməkdən əvvəl həmin ekstrakt içildikdə iştahaartırıcı təsir göstərir.

✍ **Turan MƏMMƏDLİ**
***biologiya üzrə fəlsəfə doktoru***

### *İtmişdir*

Culfa rayonu, Saltaq kəndində yaşamış Heydərov Bəhlul Alış oğlunun adına olan JN-323$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kəndində yaşayan Əsədov Sabir Qafar oğlunun adına olan JN-530$^{A}$ nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürçülü kənd sakini Qarayeva Mətanət Nəriman qızının adına olan JN-185$^{A}$ nömrəli, 10214058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sadiqov Mahir Tağı oğlunun adına olan Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 60

Nömrəyə məsul: Əli Cabbarov, Turan Məmmədli, Ceyhun Məmmədov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.